QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 068 (5788) **17 aprel** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qәpik**

# Xalqın maraqlarından çıxış edən xarizmatik lider!

*"Opinion Way" şirkətinin sorğusu göstərdi ki, Prezident İlham Əliyev 16 illik Prezidentlik fəaliyyəti dövründə yüksək reytinqə malik dövlət başçısıdır*

Səh 3



**"Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası vacib beynəlxalq quruma çevrilib"**



2

**Xalq yazıçısı Elmira Axundovanın ulu öndər Heydər Əliyev haqqında üçcildliyinin Ankarada təqdimatı olub**



4

**Türkiyə KİV-ləri: Ermənistan işğal altındakı torpaqlardan narkotik üçün istifadə edir**



2

**"YAP istənilən təklifi dəyərləndirməyə hazırdır"**



5

**Bakıda "Dini-ideoloji təhlükəsizlik və media" mövzusunda konfrans keçirilib**



6

**Sona Vəliyeva: "Bu igidlər böyük zəfərin əsasını qoydular"**



7

9

**"Fərman veteranların müavinətləri arasında fərqi aradan qaldırdı"**



11

**Sosial müavinət və təqaüdlərin illik vəsaiti 2 dəfə artırılacaq**



13

**Ronaldonu azərbaycanlı məmur oğlu çıxardılar**



# "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası vacib beynəlxalq quruma çevrilib"

*Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Bağdad Amreyevi qəbul edib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Bağdad Amreyevi Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi vəzifəsinə təsdiq olunması münasibətilə bir daha təbrik edərək, onun təşkilata üzv olan qardaş ölkələr arasında əməkdaşlığın genişləndirilməsinə töhfə verəcəyinə əminliyini bildirdi. Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının təsis olunması ilə əlaqədar 10 il bundan əvvəl Naxçıvanda keçirilmiş əlamətdar Zirvə görüşünü məmnunluqla xatırlayaraq, ötən müddət ərzində bu təşkilatın gücləndiyini və vacib beynəlxalq quruma çevrildiyini vurğuladı.

Təbrikə görə minnətdarlığını bildirən Bağdad Amreyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 10 il əvvəl məhz türk dünyasının böyük oğlu, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin doğulduğu Naxçıvanda, Azərbaycan torpağında təsis edilməsinin bu təşkilata xüsusi mahiyyət verdiyini diqqətə çatdırdı. Qonaq Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının təsis olunmasının 10 illiyi münasibətilə növbəti Zirvə toplantısına bu ilin payızında Azərbaycanın ev sahibliyi edəcəyini vurğulayaraq, bu Zirvə toplantısının da Azərbaycan tərəfindən yüksək səviyyədə təşkil olunacağına əminliyini ifadə etdi. Bağdad Amreyev təşkilat daxilində iqtisadiyyat, ticarət, maliyyə, nəqliyyat və digər istiqamətlərdə əməkdaşlığın inkişaf etdirilməsi, müvafiq beynəlxalq təşkilatlarla əlaqələrin qurulması barədə dövlətimizin başçısına məlumat verdi.

Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Bağdad Amreyevə gələcək fəaliyyətində uğurlar arzuladı və ölkəmizin bu təşkilatın 10 illiyi münasibətilə Azərbaycanda keçiriləcək Zirvə toplantısına yüksək səviyyədə ev sahibliyi edəcəyini dedi.

## Prezident İlham Əliyev: Paris Notr-Dam kilsəsində baş verən yanğınla bağlı dərindən kədərləndim

Fransanın və dünyanın mədəni irsincilərindən biri olan Paris Notr-Dam kilsəsində baş verən yanğınla bağlı dərindən kədərləndim. AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün Twitter səhifəsində yazıb. "Ümid edirəm ki, abidə qısa müddət ərzində bərpa olunaraq yenidən bəşəriyyətə qaytarılacaq", - deyə dövlətimizin başçısı qeyd edib.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev "Dövlət satınalmalarının vahid internet portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"də və 2016-cı il 28 dekabr tarixli 1182 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlətə məxsus olan hüquqi şəxslərin daxili və xarici borcalması Qaydası"nda dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Masallı rayonunun Masallı-Köhnə Alvadı-Təzə Alvadı-Güllütəpə-Əmirtürbə-Yeni Zuvand avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

## Türkiyə KİV-ləri: Ermənistan işğal altındakı torpaqlardan narkotik üçün istifadə edir

Bakıda keçirilən Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfrans (IDEC) Türkiyə KİV-ləri tərəfindən geniş işıqlandırılıb. AZƏRTAC xəbər verir ki, Türkiyə KİV-ləri konfrans haqqında ətraflı məlumat verib, Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun tədbirin açılışındakı çıxışından fikirləri diqqətə çatdırıb.



star | Son Dakika | Güncel | Dünya | Ekonomi | Spor | Yaşam | Sanat | Egitim | Yazarlar

DÜNYA

Haberler › Dünya — 15.04.2019 11:56 - Güncelleme: 15.04.2019 12:05

'Ermenistan, işgal altındaki toprakları uyuşturucu için kullanıyor'

Azerbaycan Başbakanı Novruz Memmedov, işgalin uluslararası terörizm ve yasa dışı uyuşturucu kaçakçılığı için uygun koşullar yarattığını söyleyerek , 'Ermenistan, işgal altındaki Azerbaycan topraklarını uyuşturucu üretimi ve trafiği için kullanıyor' dedi.

Spa ve doğa toplantılarınıza değer katacak

Detaylar için tıklayınız

NG Hotels Sapanca

POPÜLER HABERLER

Məlumatlar "Azərbaycanın Baş naziri Novruz Məmmədov: Ermənistan işğal altındakı torpaqlardan narkotik üçün istifadə edir", "Azərbaycan Ermənistanın kirli üzünü ortaya çıxardı" və s. sərlövhələrlə təqdim olunub.

Ölkənin aparıcı televiziya kanalları və qəzetlərinin internet saytlarında (www.cnnturk.com, www.ntv.com.tr, www.star.com.tr, www.aksam.com.tr, www.yeniakit.com.tr və s.) yer alan məlumatlarda türkdilli oxucuların diqqətinə çatdırılır ki, Azərbaycanın tarixi torpaqları olan Dağlıq Qarabağ və ətraf 7 rayon artıq 25 ildən çoxdur Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında saxlanılır. İşğal altındakı həmin ərazilərdən narkotik vasitələrin istehsalı və tranziti üçün istifadə edilməsi narkobiznesin və beynəlxalq terrorizmin genişlənməsinə münbit şərait yaradır.

## "The Jakarta Post" qəzetində Azərbaycanın 10 milyonuncu sakininin dünyaya gəlməsi barədə xüsusi məqalə dərc olunub

***İndoneziyanın ingilis dilində nəşr edilən nüfuzlu "The Jakarta Post" qəzeti Azərbaycanın 10 milyonuncu sakininin dünyaya gəlməsi barədə xüsusi məqalə dərc edib.***

AZƏRTAC xəbər verir ki, aprelin 12-də qəzetin internet versiyasında yerləşdirilən məqalə "Həftənin söhbəti: Azərbaycan 10 milyon klubuna daxil oldu" adlanır. Bildirilir ki, aprelin 6-da Bakıdakı xəstəxanada dünyaya gələn Mehriban Həsənova Azərbaycanın 10 milyonuncu vətəndaşı olub.



TheJakartaPost | PREMIUM SUBSCRIPTION | LOG IN / REGISTER

NEWS | BUSINESS | SE ASIA | OPINION | LIFESTYLE | TRAVEL | MULTIMEDIA | LONGFORM | PAPER EDITION | MORE

Talk of the week: Azerbaijan joins 10 million club

The Jakarta Post

Jakarta / Fri, April 12 2019 / 03:14 am

0 SHARES

Welcome to the club: The 10 millionth citizen of Azerbaijan Mehriban Hasanova at a hospital in Baku. She was born on April 6. (Courtesy of Azerbaijan Embassy Jakarta)JakartaAzerbaijanis were jubilant recently as their country joined the club of nations with over 10 million people. The 10 millionth child was born on April 6 in Baku, according to a senior Azerbaijani diplomat in Jakarta. "Now we have become a country of 10

Məqalədə bu xəbərin ölkə əhalisi tərəfindən böyük sevinclə qarşılandığı və Azərbaycanın 10 milyon əhalisi olan ölkələr klubuna daxil olması ilə əlaqədar hər yerdə bayram tədbirlərinin keçirildiyi vurğulanır. Bu barədə xəbərin isə qəzetə Azərbaycanın Cakartadakı səfirliyi tərəfindən verildiyi qeyd edilir.

Ölkəmizin İndoneziyadakı müvəqqəti işlər vəkili Ruslan Nəsibovun sözlərini sitat gətirən qəzet yazır: "Aprelin 6-da Bakıda Mehriban Həsənovanın dünyaya gəlməsi ilə biz 10 milyon əhalisi olan ölkəyə çevrildik. Bununla biz əhalisinin sayına görə dünyanın 90-cı ölkəsi olduq".

Vurğulanır ki, Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Azərbaycan xalqını və yeni doğulan Mehribanın valideynlərini təbrik ediblər. Prezident İlham Əliyev şəxsən körpənin valideynləri ilə görüşüb.

Məqalədə ölkəmiz haqqında verilən əlavə məlumatda Azərbaycanın Cənubi Qafqaz regionunun ən böyük dövləti olduğu, İndoneziya ilə sıx dostluq münasibətləri saxladığı və burada əsasən müsəlmanların yaşadığı qeyd edilib. Bildirilib ki, həm Azərbaycan, həm də İndoneziya Qoşulmama Hərəkatının və İslam Əməkdaşlıq Təşkilatının üzvləridir, həmçinin müxtəlif beynəlxalq forumlarda sıx əməkdaşlıq edirlər.

# Xalqın maraqlarından çıxış edən xarizmatik lider!

## *“Opinion Way” şirkətinin sorğusu göstərdi ki, Prezident İlham Əliyev 16 illik Prezidentlik fəaliyyəti dövründə yüksək reytinqə malik dövlət başçısıdır*

***Dövlət başçısı Ilham Əliyev ilk dəfə prezident seçildiyi dövrdən 16 il keçir. 16 il öncə, yəni oktyabr ayının 15-də Azərbaycan seçiciləri növbəti prezident seçkilərində 76 faizdən çox səs verərək, Ona 5 illik müddətinə ölkəyə rəhbərlik mandatı verdilər. Həmin vaxtdan ötən 16 il ərzində də, Azərbaycan seçiçiləri daha 3 dəfə - 2008, 2013 və 2018-ci il (aprel) seçkilərində də böyük səs çoxluğu ilə Cənab İlham Əliyevə etimad göstərdilər, Onu yenidən Prezident seçdilər.***



Prezident İlham Əliyevin son 16 il ərzində xalqın rifahı naminə həyata keçirdiyi məqsədyönlü siyasət bu gün ölkəmizi keçid dövründən sonrakı növbəti və daha uğurlu bir mərhələyə daşımaqdadır.

Prezident İlham Əliyevin hakimiyyətə gəldiyi dövr Azərbaycan üçün regional, beynəlxalq, daxili problemlərlə müşayiət olunub, lakin Onun dövlət rəhbərliyinə gəlişi Azərbaycanı, Cənubi Qafqaz regionunu bir çox problemlərdən xilas etdi. Eyni zamanda, Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyev kimi siyasət patriarxından sonra liderliyə gəlişi ilə xalqın inamını, etibarını və maraqlarını qoruyubsaxlaya bildi. Bu gün Azərbaycanın həm daxili, həm də beynəlxalq mövqelərinin güclənməsi, məhz İlham Əliyevin adı ilə bağlıdır. Cənab İlham Əliyev strateji planlama LİDERİDİR. Dövlət başçısı yüksək ideyalarla yaşamağı bacaran, xalqını dəqiq hədəflərə apara bilən LİDERDİR. Dövlət başçısı İlham Əliyevin 15 illik Prezidentlik dövrü millətimiz üçün uğurlu olub, bu kurs davam etməkdədir. Prezident İlham Əliyevin 2018-ci ildə Prezident seçilməsi sübut edir ki, O, milli faydaları xalqı üçün yaşatmaqdadır.

### 2003-2018-ci illər - möhtəşəm iqtisadi yüksəliş dövrü

Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi 2003-2018-ci illər tariximizə möhtəşəm iqtisadi yüksəliş dövrü kimi daxil olub. Bu illər ərzində, əldə olunan uğurlu göstəricilər deyilənlərin real sübutudur. Belə ki, bu dövrdə ümumi daxili məhsul 3,2 dəfə, büdcə gəlirləri 13,5 dəfə, ölkənin strateji valyuta ehtiyatları 26,6 dəfə, xarici ticarət dövriyyəsi 4,6 dəfə, ixracın həcmi 6 dəfə, regionlarda ümumi məhsul buraxılışının artımı 3,6 dəfəyə bərabər olub. Əldə olunan nailiyyətlər ölkədə sistemli şəkildə həyata keçirilən islahatlar nəticəsində, iqtisadi inkişaf modelinin təkmilləşdirilməsi, biznes və investisiya mühitinin yaxşılaşdırılması, kiçik və orta sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi, regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi sayəsində mümkün olub.

Əhalinin nominal gəlirləri 8,6 dəfə, minimum əməkhaqqı 12,9 dəfə, xaricə səfər edən vətəndaşların sayı 2,2 dəfə, əhalinin banklardakı əmanəti 30 dəfə artıb. Hər 100 ailəyə 53 avtomobil düşür, 1 958 400 yeni iş yeri açılıb, 326,6 min nəfərə ünvanlı dövlət sosial yardımı verilib. İşsizliyin səviyyəsi 9,2 faizdən 5 faizə, yoxsulluğun səviyyəsi 44,7 faizdən 5,4 faizə enmiş, 245 min nəfər məcburi köçkün mənzillə təmin olunub. Əhalinin sosial müdafiəsinin güclənməsinə səbəb olan mühüm sosial layihələr reallaşdırılıb, yeni sosial obyektlərin tikintisi istiqamətində əhəmiyyətli işlər görülüb. Güclü sosial siyasətin həyata keçirilməsi əhalinin keyfiyyətli və etibarlı sosial qayğı ilə əhatə olunmasına imkan yaradıb, sosial müdafiəyə daha çox ehtiyacı olan hissəsinə xüsusi diqqət gücləndirilib. Paytaxtdakı və regionlardakı iqtisadi ehtiyatların səfərbər edilməsi yeni müəssisələrin və iş yerlərinin açılmasına, işsizliyin səviyyəsinin xeyli aşağı salınmasına, insanların layiqli yaşayışının təmin edilməsinə səbəb olub. Azərbaycanda həyata keçirilən dövlət siyasətinin ən mühüm üstünlüklərindən biri ölkəmizdə həyata keçirilən çoxşaxəli islahatların dərin konseptual əsaslar və hər sahədə dinamik inkişafı təmin edən konkret proqramlarla dəstəklənməsidir.

Azərbaycan islahatların önündə gedən dövlət kimi əksər aparıcı reytinq agentliklərinin hesabatında və keçirilən rəy sorğularında daim diqqət çəkmişdir. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Davos İqtisadi Forumu Azərbaycanda aparılan islahatlara yüksək qiymət vermişlər. Davos Forumunun "İnklüziv inkişaf indeksi" illik hesabatında (2017) ölkəmiz inkişaf etməkdə olan 80 ölkə arasında 3-cü yerə yüksəlmişdir. Belə faktlar kifayət qədər çoxdur.

Növbəti reytinq agentliklərindən biri, Fransanın "Opinion Way" şirkəti cari ilin mart ayında, Naxçıvan MR istisna olmaqla, Azərbaycanın bütün bölgələrində apardığı rəy sorğusunda ölkəmizin qazandığı uğurları təsdiq etmişdir. Bu şirkətin rəhbəri Brüno Janbar, bir neçə gün əvvəl, Beynəlxalq Mətbuat Mərkəzində təşkil edilən konfransda sorğunun nəticələrini elan edərək, bildirib ki, Prezident İlham Əliyevin son bir ildə gördüyü işləri necə qiymətləndirirsiniz" sualına respondentlərin 85,1 faizi, bütövlükdə, müsbət cavab verib.

### “Opinion Way”in sorğusunda respondentlərin 75,6 faizi Prezidentin seçkiqabağı vədlərini yerinə yetirdiyini təsdiqləyib

Prezident İlham Əliyev 2019-cu il yanvarın 14-də dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Fərman imzaladı, idarəetmə sistemində çevikliyin və effektivliyin təmin edilməsi məqsədilə struktur islahatlarına start verdi. Son bir ildə məhkəmə-hüquq sisteminin modernləşməsi prosesi aparılmış, apellyasiya və inzibati-iqtisadi məhkəmələrin fəaliyyəti təkmilləşdirilmişdir. Prezident 2019-cu il aprelin 3-də "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərman imzalamışdır. Bu sənəddə ədalət mühakiməsinin formalaşdırılması, məhkəmə icraatının effektivliyinin yüksəldilməsi və digər mühüm məsələlərin həll olunması istiqamətində zəruri tədbirlərin görülməsi nəzərdə tutulur. Məhkəmə-hüquq sahəsində mühüm islahatlardan biri də mediasiya institutunun yaradılması ilə bağlı martın 29-da müvafiq qanunun Prezident tərəfindən imzalanmasıdır. Cinayət törətmiş şəxslərin bağışlanması, artıq mərhəmət ənənəsinə çevrilmiş, 2019-cu il 16 mart tarixində "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" Sərəncam imzalanmışdır.

Bir sözlə, "Opinion Way" şirkətinin sorğusu Azərbaycanın sosial-iqtisadi həyatının bütün sahələrini əhatə etmiş və mövcud vəziyyəti olduğu kimi dəyərləndirə bilmişdir. Əhəmiyyətli məqam olaraq, bir faktoru vurğulamaq yerinə düşər ki, bu gün heç bir postsovet məkanında Azərbaycanda olduğu qədər xalq-dövlət vəhdətinin sarsılmaz birliyi yoxdur. Əbəs yerə deyil ki, bütün seçki ərəfələrində Azərbaycan cəmiyyətində ölkənin gələcəyi, onun strateji inkişaf kursu ilə bağlı ciddi fikir ayrılığının olmadığı, məhz xalqın rəyi əsasında sübuta yetirilib. Həmçinin, istər yerli, istərsə də xarici ekspertlər, politoloqlar, müxtəlif nüfuzlu ictimai-siyasi institutlar, araşdırma və sorğu mərkəzləri dəfələrlə bəyan ediblər ki, Prezident İlham Əliyev, şəksiz lider olaraq, qarşısına qoyduğu bütün vəzifələrin öhdəsindən layiqincə gəlir, xalqına verdiyi bütün vədləri reallaşdırır.

Bunu Fransanın "Opinion Way" şirkətinin keçirdiyi rəy sorğusu da göstərdi ki, Prezident İlham Əliyev ölkə vətəndaşlarının yüksək etimadını qazanıb. Bütün bunlar isə, belə qənaətə gəlməyə kifayət qədər zəmin yaradır ki, xalqımızın mütləq əksəriyyəti İlham Əliyevin gördüyü işləri bəyənir və Azərbaycan Prezidentinə hər zaman etimad göstərməyə hazırdır.

***RƏFİQƏ KAMALQIZI***

# Xalq yazıçısı Elmira Axundovanın ulu öndər Heydər Əliyev haqqında üçcildliyinin Ankarada təqdimatı olub






***Azərbaycanın Türkiyədəki səfirliyinin təşkilatçılığı ilə Milli Məclisin deputatı, Xalq yazıçısı Elmira Axundovanın ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyəti haqqında türk dilində nəşr olunmuş “Heydər Əliyev: Şəxsiyyət və zaman”, “Heydər Əliyev: Kremldə beş il” və “Heydər Əliyev: Qayıdış” üçcildliyinin aprelin 16-da Ankara şəhərində təqdimatı keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan və Türkiyəni təmsil edən rəsmi şəxslər, deputatlar, tanınmış ziyalılar, elm və mədəniyyət xadimləri, qardaş ölkə ictimaiyyətinin nüfuzlu simaları, Ankarada təhsil alan azərbaycanlı tələbələr və kursantlar təqdimatda iştirak ediblər. Əvvəlcə Azərbaycanın və Türkiyənin dövlət himnləri səsləndirilib.***

Sonra ümummilli lider Heydər Əliyevin, Türkiyə dövlətinin qurucusu Mustafa Kamal Atatürkün və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Tədbirin iştirakçılarını salamlayan Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahim ümummilli lider Heydər Əliyevin zəngin və mənalı həyat yolunu əks etdirən nəşrlərin əhəmiyyətindən danışıb. Səfir əminliklə qeyd edib ki, bu kitablar qardaş Türkiyədə geniş oxucu kütləsi tərəfindən seviləcək.

Ümummilli lider Heydər Əliyevin şəxsiyyətinin ucalığı, Azərbaycan xalqı qarşısındakı xilaskarlıq missiyası, həyata keçirdiyi layihələrin təkcə Azərbaycan və Türkiyə üçün deyil, Avrasiyanı əhatə edən böyük bir coğrafiyada ölkələrin inkişafına və xalqların rifahına göstərdiyi təsir barədə ətraflı məlumat verən Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov vurğulayıb ki, təqdim olunan üçcildlik Ulu Öndərimizin zəngin həyat və fəaliyyətini əks etdirən ən dəyərli nəşrlərdəndir. Kitablarda əksini tapan faktların, arxiv sənədlərinin rəvan yazı üslubunda qələmə alınmasının nəşrlərə böyük dəyər gətirdiyini diqqətə çatdıran Prezidentin köməkçisi deyib: “Oxuculara təqdim olunan kitabların ən böyük dəyəri ondadır ki, əsərlər tarixi xilaskarlıq missiyası ilə xalqın əbədi məhəbbətini qazanan Heydər Əliyev şəxsiyyətini tərənnüm edir. Digər qiymətli amil isə budur ki, bu kitablar məhz yüksək intellekti və dünyagörüşü olan tanınmış yazıçı Elmira Axundova tərəfindən qələmə alınıb”.

Əli Həsənov bildirib ki, Heydər Əliyev türk dünyasının dahi şəxsiyyətləri arasında layiqli yer tutan liderdir. Ulu Öndərin söylədiyi “Biz bir millət, iki dövlətik” və Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkün dediyi “Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir!” kəlamları bu gün Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dostluq və qardaşlıq münasibətləri əsasında özünü tam şəkildə doğruldur. Təqdim olunan əsərlərin xarici dillərə tərcüməsi tarixi əhəmiyyət daşıyır. Üçcildliyin Türkiyə oxucularına çatdırılmasının ən böyük önəmi budur ki, Heydər Əliyev Azərbaycanda olduğu qədər də qardaş ölkədə sevilir və məhəbbətlə yad olunur. Türkiyə oxucuları bu əsərlər vasitəsilə Heydər Əliyev şəxsiyyəti barədə daha mükəmməl informasiyalar əldə edə biləcəklər.



Çıxışında Azərbaycan-Türkiyə qardaşlıq münasibətlərinin dinamikasından və iki dost ölkənin inkişafında böyük xidmətləri olan Heydər Əliyev şəxsiyyətinin ucalığından danışan Türkiyə xarici işlər nazirinin müavini Səlim Yavuz Kıran vurğulayıb ki, Ulu Öndərin qurduğu dövlət Azərbaycan xalqına əmanətdir. Bu əmanətin qorunması Azərbaycan üçün olduğu qədər, Türkiyə üçün də əhəmiyyət daşıyır. Xalq yazıçısı Elmira Axundovanı təqdim olunan əsərlər münasibətilə təbrik edən nazir müavini əminliklə vurğulayıb ki, təqdim olunan kitablar Türkiyədə böyük oxucu rəğbəti qazanacaq.

Ulu öndər Heydər Əliyevin siyasi hakimiyyəti dövründə Azərbaycanda əldə olunan tarixi nailiyyətlərdən bəhs edən Milli Məclisin səhiyyə komitəsinin sədri, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov vurğulayıb ki, ölkəmiz müstəqilliyinin ilk illərində parçalanmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Heydər Əliyev xalqın birliyinə arxalanaraq ölkəmizi xilas edib, dövlətimizin gələcək inkişafını təmin edib. Elmira Axundova gərgin bir zəhmət hesabına ərsəyə gətirdiyi əsərləri ilə Ulu Öndərimizin şərəfli ömür yoluna işıq salır.

Heydər Əliyevin yüksək insani keyfiyyətlərindən, öz xalqı qarşısında gördüyü nəhəng işlərdən danışan Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım böyük şairimiz Hüseyn Cavidin nəşinin uzaq Sibirdən Azərbaycana gətirilməsini sovet dönəmində həyata keçirilməsi çox çətin olan bir iş kimi dəyərləndirdi. Ulu Öndərimizlə bağlı xoş xatirələrini danışan Şamil Ayrım Heydər Əliyevin Türkiyə dövlətinin banisi Mustafa Kamal Atatürk qədər vətənpərvər və cəsarətli bir şəxsiyyət olduğunu bildirib. Azərbaycanın qısa zamanda bütün sahələrdə inkişaf etdiyini, böyük kadr potensialı yaratdığını vurğulayan deputat Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində hər kəsi fəal olmağa çağırıb. O, Türkiyəyə qarşı saxta “erməni soyqırımı” iddialarını kəskin şəkildə qınayıb. Əminliklə ifadə edib ki, təqdim olunan əsərlər Türkiyədə kitabsevərlər tərəfindən rəğbətlə qarşılanacaq.



Görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan və Türkiyə üçün həyati əhəmiyyət kəsb edən nəhəng layihələrini tarixi missiya kimi dəyərləndirən Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun sabiq rəhbəri Necdət Ünüvar təqdim olunan əsərlərin böyük zəhmət və sevgi ilə ərsəyə gətirildiyini qeyd edib. O deyib ki, kitablar tarixin əsl daşıyıcısıdır. Bu əsərlər müasir Azərbaycan tarixinin Heydər Əliyev dövrünü tərənnüm edir.

Əsərlərinin yüksək səviyyədə təqdimatına görə, təşkilatçılara və iştirakçılara minnətdarlığını ifadə edən Milli Məclisin deputatı, Xalq yazıçısı Elmira Axundova ulu öndər Heydər Əliyevlə bağlı xatirələrini bölüşərək deyib. “Əsərin iki qəhrəmanı var: Heydər Əliyev və zaman” fikri ilə oxucuların alqışlarını qazanan yazıçı çıxışını bu sözlərlə tamamlayıb: “Üçcildliyin ön sözünün müəllifi görkəmli qazax yazıçısı Oljas Süleymenov deyib ki, bu kitabları yazdıran məhəbbətdir. Mən həqiqətən də qəhrəmanımı sevirəm və istəyirəm ki, üçcildliklə tanışlıqdan sonra sizin qəlbinizdə də böyük Heydər Əliyevə eyni duyğular kök salsın”.

Qeyd edək ki, türkdilli oxuculara təqdim olunan üçcildlik roman-tədqiqat ümummilli lider Heydər Əliyevin uşaqlıq və gənclik dostları, qohumları və yaxınları ilə lentə alınmış yüzlərlə söhbət, tanınmış siyasi xadimlər və dövlət adamları ilə münasibətlər, Dövlət Təhlükəsizliyi Komitəsinin arxivlərindəki, Prezidentin şəxsi arxivindəki sənədlər əsasında yazılıb. Böyük zəhmətlə ərsəyə gələn əsər Azərbaycanda və onun hüdudlarından kənarda oxucular arasında geniş əks-səda doğurub. Roman-tədqiqat yüksək peşəkar səviyyədə yazılıb və Azərbaycan xalqının dahi oğlunun həyat və fəaliyyətinin öyrənilməsi və təbliği baxımından böyük əhəmiyyətə malikdir. Üçcildlik “TEAS Press” Nəşriyyat evi tərəfindən çap olunub. Əsərləri türk dilinə Azad Ağaoğlu tərcümə edib. Sonda yazıçı Elmira Axundova kitablarını öz imzası ilə tədbir iştirakçılarına təqdim edib.

# "YAP istənilən təklifi dəyərləndirməyə hazırdır"

*Yeni Azərbaycan Partiyası İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzovun SİA-ya müsahibəsi:*

***- Siyavuş müəllim, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci ilin aprel ayının 11-də prezident seçilməsindən 1 il ötür. Siz bu 15+1 formatından çıxış edərək ölkə başçısının son 1 illik fəaliyyəti çərçivəsində Azərbaycanda mənəvi-dəyərlərin təbliği istiqamətində apardığı işləri necə dəyərləndirərdiniz?***



- Ümumiyyətlə, Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bir çox sahələrdə çox ciddi dəyişikliklər gedib. İlk növbədə, Azərbaycan dövlətçiliyi, müstəqilliyi qorunub saxlanılıb, ölkəmizin iqtisadi inkişafı, iqtisadi bazası möhkəmlənib, neft müqavilələri imzalanıb və ən əsası isə təhlükəsizlik məsələləri həll olunub. Bununla belə milli-mənəvi dəyərlərin dünyaya təqdim olunması prosesi həyata keçirilib. Təbii ki, son 15 ildə də bu proses davam edib. Çünki bu, Ulu Öndər Heydər Əliyev siyasi xəttini təşkil edir. Həmin siyasi xəttin uğurlu davamçısı olaraq da Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın bütün sahələrində çox böyük inkişafa nail olunub. İlk növbədə, bunların həyata keçirilməsi üçün siyasi iradə ortaya qoyulub. İkincisi, xalq-iqtidar birliyi mövcuddur. Üçüncüsü isə müstəqil siyasətin aparılması dayanır. Məhz bunun nəticəsi olaraq da Azərbaycan həm iqtisadi, siyasi cəhətdən, həm də təhlükəsizlik, ictima-siyasi sabitlik baxımından bu gün regionda və dünyada nümunə göstərilə biləcək bir ölkədir. O cümlədən Azərbaycanda söz, mətbuat azadlığı, azad internet, müxtəlif səpkili məsələlərin həllinin dialoq əsasında həyata keçirilməsi, siyasi sistemin ciddi şəkildə möhkəmləndirilməsi, hər bir şəxsin fikrinə hörmət edilməsi, Azərbaycan vətəndaşının rifahı başlıca məqsəd hesab olunur. Təbii ki, bu məqsədə nail olmaq üçün də müxtəlif vəzifələr müəyyənləşib və bu vəzifələr həyata keçməkdə davam olunur.

Cənab İlham Əliyevin 2018-ci ilin aprelin 11-də yenidən Prezident seçilməsi ilə Azərbaycanda yeni bir mərhələnin başlanğıcına qədəm qoyuldu. Ölkə başçısı bu yeni mərhələdə bir sıra ciddi struktur islahatları həyata keçirməklə bütün sahələrdə, o cümlədən milli-mənəvi dəyərlər sahəsində də müxtəlif addımların atılmasına nail oldu. İlk növbədə, seçki dövründə ortaya çıxan müxtəlif təkliflər, rəylər, arzular və istəklər toplanılaraq cəmləşdirildi və nəticə etibarilə Prezidentin seçki platformasına daxil olundu. Sonradan bu məsələlər Azərbaycanın dövlət büdcəsində öz əksini taparaq müxtəlif layihələr, planlar hazırlandı. Ən əsası isə dövlət strukturunda olan islahatlar idi. Bu islahatlar uzun müddət idi ki, gözlənilirdi və cənab Prezident tərəfindən bu işlər həyata keçirildi. Beləcə, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin tərkibində ciddi dəyişikliklər olundu və struktur islahatları aparıldı. Amma bəzən iddia edirlər ki, struktur və kadr islahatları tamam başqadır. Təbii ki, Azərbaycan dövlətçiliyinin quruluşunu Ümummilli Lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra qəbul olunmuş Konstitusiyada müəyyən edir. Bu Konstitusiya çərçivəsində idarəetmə sisteminin forması müəyyən olunur. Azərbaycan Respublikası prezidentli respublikadır. Bunun tərkibində müxtəlif kadr islahatları və digər struktur islahatları həyata keçirilir. Bəziləri insanları çaşdırmaqdan ötrü ortaya müxtəlif fikirlər atırlar. Yox bu islahat deyil və s. Bəs, islahat hansı formada olmalıdır? Məsələn, biz Türkiyə kimi parlamentli republikadan prezidentli respublikaya keçsək, o zaman sistem tamamən başqa formatda qurulmalıdır. Bu zaman həm parlamentdə müxtəlif dəyişikliklər olmalıdır, həm də yerli özünüidarəetmə sistemində və s. Başqa ölkələrdə isə prezidentli respublikadan parlamenti respublikaya keçid olur və orada da struktur tamamilə başqa formatda olur. Amma Azərbaycanda yaranmış və Konstitusiya ilə müəyyən olunmuş struktur mövcuddur. Bu strukturun tərkibində isə işləyən və işləməyən sahələr, mexanizmlər vardır. Bu mexanizmləri aktivləşdirməklə və qarşıya qoyulan o islahatın həyata keçirilməsi ilə müxtəlif məsələlər də öz həllini tapır. Bu baxımdan da hansısa struktur öz effektivliyini itiribsə, o ləğv olunur. Aprelin 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərman imzaladı. Həmin Fərmana əsasən isə Komissiya yaradılıb və artıq bu sahədə işlərə başlanılıb. Təbii ki, biz burada bütövlükdə məhkəmə-hüquq sistemini ləğv edə bilmərik. Sadəcə olaraq proses sadələşdirilib. Burada milli psixologiya, milli-mənəvi, əxlaqi dəyərlər və s. var ki, həmin məsələlərin tam əhatə olunması nəzərdə tutulmalıdır. Hər bir qanun o ölkənin xalqının mənafeyinə xidmət etməlidir.

***- Bildiyiniz kimi bu ilin 14-15 noyabr tarixlərində Azərbaycanda "Dünya dini liderlərinin II Bakı sammiti" keçiriləcək. Cənab Prezident bununla əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında sərəncam imzalayıb və siz həmin komitənin üzvlərindən birisiniz. İstərdik bu sammitin əhəmiyyəti barəsində danışasınız.***

- Ümumiyyətlə, Azərbaycanda milli mənəvi-dəyərlərə çox yüksək qiymət verilir. Azərbaycan dünyada tolerant bir ölkə kimi tanınır. Azərbaycanda bütün dinlərə bərabər şəkildə şərait yaradılıb. Azərbaycan Respublikasının Konstitusiyasında göstərildiyi kimi dilindən, dinindən asılı olmayaraq qeydiyyatdan keçmiş hər hansı bir din azad şəkildə ölkəmizdə fəaliyyət göstərə bilər. Bu məsələ "Dini etiqad azadlığı" haqqında qanunla da tənzimlənir. Təbii ki, Azərbaycanda din dövlətdən ayrıdır və ölkəmiz dünyəvi dövlətdir. Amma bununla yanaşı dövlətimiz həmişə dinin yanındadır. Görürsünüz ki, bütün dinlərlə bağlı olan beynəlxalq konfransların, tədbirlərin əksəriyyəti Azərbaycanda keçirilir. Həmin tədbirlər ölkəmizdə keçirildikdə müxtəlif dinlərin nümayəndələri və rəhbərləri burada iştirak edir. Bildiyiniz kimi, səmavi dinlər deyilən bir anlayış vardır. O dinlərə daxil olan bütün qruplar və fəaliyyəti qanunla qadağan olunmamış digər dinlərin hər biri bu proseslərdə iştirak edirlər. Bakıda dəfələrlə bu cür konfranslar keçirilib.

Xüsusilə qeyd etmək istərdim ki, bu məsələlərdə Heydər Əliyev Fondunun çox böyük rolu vardır. Məscidlərin, dini ocaqların, müqəddəs yerlərin bərpası, tikintisi və əhalinin istifadəsinə verilməsində Azərbaycanın birinci vitse-prezidenti Mehriban Əliyevanın çox böyük rolu vardır. Buna nümunə olaraq ən qədim məscidlərdən biri olan Şamaxı məscidinin, İmamzadə Kompleksinin bərpa olunub istifadəyə verilməsi, ayrı-ayrı yerlərdə böyük məscidlərin, o cümlədən Cənubi Qafqazın ən böyük məscidi olan Heydər Məscidinin tikilib istifadəyə verilməsini göstərə bilərik. Buna paralel olaraq həm sinaqoqların, kilsələrin, həm də udin-alban kilsələrinin tikintisi, bərpası Azərbaycan dövlətinin, xalqının əsas fəaliyyət istiqamətlərindən biridir. Çünki bizim xalq çox tolerant bir xalqdır. Azərbaycanda dinlərə hörmətlə yanaşılır. Baxmayaraq ki, Avropada, dünyanın aparıcı dövlətlərində dinlər arasında müxtəlif konfiliktlər, münasibətlərin kəskinləşməsi olduğu bir halda ölkəmizdə bu cür hallar yoxdur və bundan sonra da ola bilməz. O cümlədən Azərbaycan dünyanın ayrı-ayrı ölkələrində də bu sahədə beynəlxalq konfranslar keçirib. Buna misal olaraq, Heydər Əliyev Fondunun Fransada, İtaliyada, Vatikanda keçirdiyi konfransları, Qafqaz Müsəlmanları İdarəsinin və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, ayrı-ayrı QHT-lərin keçirdiyi tədbirləri göstərə bilərik. Hətta ayrı-ayrı ölkələrdə Azərbaycan dini məbədlərin bərpasında da yaxından iştirak edir və öz töhfəsini verir. O baxımdan da Azərbaycanda bu cür tədbirlərin keçirilməsi mütəmadidir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə də Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini-İcra katibi Əli Əhmədovun rəhbərliyi altında Komissiya yaranıb. Komissiya yaxın vaxtlarda "Tədbirlər Planı"nı işləyib hazırlayaraq təqdim edəcəkdir. Təbii ki, həmin "Tədbirlər Planı"na uyğun olaraq da biz beynəlxalq konfransın çox yüksək şəkildə keçirilməsinə nail olacayıq.

***- 100 ildən artıqdır ki, ermənilər hər il aprelin 24-də öz xəyanətkar əməllərini ört-basdır etmək üçün "erməni soyqırımı"cəfəngiyatı ilə Türkiyəni ittiham edərək hay-küy kampaniyası aparırlar. Siz bu addımları necə xarakterizə edərdiniz?***

- Təbii ki, bunlar hamısı qurma məsələlərdir. Ümumiyyətlə, burada söhbət təkcə ermənilərdən getmir, türk dünyasını gözü götürməyən qüvvələrdən gedir. Həmin qüvvələr müxtəlif bəhanələrlə bu cür addımların atılmasını gündəmə gətirirlər və bundan bir təzyiq metodu kimi istifadə edirlər. Dünyada onlarla belə misal göstərmək olar. Bu mif deyil, əksinə reallıqdır. Ermənilər heç bir tarixi araşdırma aparmadan iddia edir ki, türklər tərəfindən "soyqırımı"na məruz qalıblar. Dəfələrlə Türkiyə hökuməti, rəhbərliyi də deyib ki, əgər belədirsə, bunu tarixçilərə həvalə edək. Qoy, onlar araşdırıb faktları üzə çıxarsınlar. Əksinə, ermənilər türkləri, azərbaycanlıları müsəlman olduqlarına görə qətlə yetiriblər. Biz bunu Xocalı faciəsində də görmüşük, işğal olunmuş ərazilərimizdə də şahidi olmuşuq. Dünyada buna oxşar xeyli hadisələr mövcuddur.

Məsələn, ABŞ-ın Quantanama həbsxanasında insanlara olmazın əziyyətləri, işgəncələri verilir. Hətta deyərdim ki, burada bəşəriyyətin görmədiyi cinayətlər (insanların daxili orqanının satılması, onların üzərində ekspertiziyaların edilməsi və s.) törədilib. Mənəvi cəhətdən onların təhqir olunması, əqidəsinə, dini baxışlarına qarşı məcburiyyətlər gözlərimizin qarşısında baş verib. Məsələn, İkinci Dünya Müharibəsi ərəfəsində 10 milyona yaxın yəhudinin öldürülməsi, yandırılması dəhşətli hadisələr idi. Bunlar hamısı insanların gözü önündə baş verib, faktlar var. Buna münasibət bildirmək əvəzinə Türkiyəyə qarşı təzyiq göstərirlər. Ümumiyyətlə, Türkiyə NATO-nu yaradan ölkələrdən biridir və 50 ildən artıqdır ki, Avropa İttifaqı ilə əməkdaşlıq edir və Aİ-yə üzv olmaq istəyir. Məsələn, keçmiş Yuqoslaviyanın tərkibindən 8 ölkə yaranıb. Serbiyadan başqa yerdə qalan ölkələrin hamısını həm NATO-ya daxil ediblər, indi də Avropa İttifaqına daxil etməyə başlayıblar. Halbuki bunların nə iqtisadi potensialı, nə də digər xüsusiyyətləri Avropa standartlarına cavab vermir. Türkiyə 80 milyondan çox əhalisi olan böyük bir dövlətdir. NATO-nun ən güclü quru qoşunları Türkiyədədir. Təbii ki, bunlar hamısı bəhanədən başqa bir şey deyil.

***- Siyavuş müəllim, Ermənistan tərəfi daim Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qeyri-konstruktiv addımlar atıb. Bu ölkənin baş naziri Nikol Paşinyanın bu yaxınlarda Strasburqda AŞPA-nın tribunasından yalanlar danışması da buna bariz sübut idi. Belə olan təqdirdə işğalçı ölkəyə qarşı hansı mexanizm tətbiq edilməlidir?***

- Hesab edirəm ki, bu gün Ermənistan rəhbərliyi siyasətin həyata keçirilməsində çox naşı və hər şeydən xəbərsiz olan bir insandır. Paşinyan bir növ Mirzə Fətəli Axundzadənin "Aldanmış kəvakib" ("Hekayəti-Yusif şah") əsərində olan Yusif Sərrac obrazına bənzəyir. O hələ də bilmir ki, hakimiyyətə niyə gəlib və məqsədi nədir. Paşinyan danışıqlara hazır olmadığına görə, görüşlərin keçirilməsində də heç bir mahiyyət yoxdur. O hər dəfə müxtəlif bəhanələr gətirəcək ki, görüşlərdən qaçsın. Hətta deyərdim ki, Paşinyan səsləndirdiyi bəyanatların heç biri ilə özü də razı deyil. O bu bəyanatları verməklə danışıqlar müddətini uzatmağa və prosesin içərisinə daxil olmağa çalışır. Amma bununla paralel olaraq həmin proseslərin uzanması Ermənistanı daha da ağır vəziyyətə gətirir. Çünki o Ermənistanda hakimiyyətə gələndə xalqa yalandan müxtəlif vədlər vermişdi. Paşinyan ondan-bundan bir qədər pul toplayıb bir ay ölkəsini ayaqda saxlamağa çalışdı. Amma sonradan bu mümkün olmadı.

Ardı Səh. 6

# "YAP istənilən təklifi dəyərləndirməyə hazırdır"

*Yeni Azərbaycan Partiyası İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzovun SİA-ya müsahibəsi:*

Əvvəli Səh. 5

Dövləti qrantla, xaricdən gələn yardımla və yaxud da hansısa sahibkardan pul qoparmaqla saxlamaq mümkün deyil. Dövlətin inkişafının strateji proqramı olmalıdır. Ermənistan getdikcə uçurumun dibinə yuvarlanır. Azərbaycanın isə günü-gündən qüdrətlənməsi, ordumuzun getdikcə artan gücü, yeni silahlarla tam şəkildə təmin olunması onlarda bir xof yaradır. 2016-cı ilin Aprel döyüşləri buna bir nümunə sayıla bilər. Eləcə də insanlarda olan vətənpərvərlik ruhu, öz torpaqlarına bağlılıq sübut edir ki, Ermənistanın bu cür siyasətinin axırı yoxdur.

***- Əvvəllər Azərbaycan siyasi meydanında iqtidar-müxalifət dialoquna tez-tez şahidlik edirdik. Amma son illərdə bu cür dialoqlar aparılmır. Yeni Azərbaycan Partiyası belə dialoqlara hazır olduğunu dəfələrlə bildirsə də, amma müxalifət düşərgəsi ajiotaj yaratmaqda davam edir.***

- Biz dialoqa və hər bir məsələni müzakirə etməyə, ortaya qoymağa həmişə hazırıq. Amma gərək dialoqu apara biləcək tərəf ortaya çıxsın və ardıcıl şəkildə təkliflər versin, layihələr təqdim etsin ki, oturub onunla söhbət edib dialoq aparasan. Bu gün Azərbaycan parlamentində təmsil olunmayan siyasi partiyalar, dağıdıcı mövqedə duran təşkilatlar var, eləcə də müxtəlif adlar altında ayrı-ayrı dövlətlərə işləyən qüvvələr var. Hansı ki, onlar başqa-başqa ölkələrin hərbi kəşfiyyatına və yaxud da təhlükəsizlik orqanına xidmət edən insanlardır. Onlar tapşırıq gələn kimi bir yerə toplaşır və tapşırıq olmadıqda isə dağılışırlar. Təbii ki, dialoqla bağlı bizim bir neçə dəfə görüşlərimiz keçirilib. Orada da təqdim olunub ki, hər bir təşkilat özünün təklifini irəli sürə bilər. Əfsuslar olsun ki, onların heç biri yazılı şəkildə ortaya heç bir sənəd qoymayıblar. Bunların arzusu odur ki, tədbir keçirilsin və orada görüntü yaratsınlar. Müxalifətin funksiyası alternativ təkliflərin verilməsindən ibarət olmalıdır. Biz istənilən təklifi dəyərləndirməyə hazırıq. Vaxtilə keçirilən dialoqlarda bir sıra partiyalara xaricdən göstəriş gəlmədiyinə görə iştirak etmədilər.

***- Antiazərbaycançı şəbəkə və onların buyruq quluna çevrilən Leyla Yunus bu günlərdə yenə də məkrli tapşırıqlardan birini həyata keçirmək qərarına gəlib. Xaricdə oturaraq ölkəmizə qarşı qarayaxma kampaniyası həyata keçirir. Onun bu əməllərinə nə ad verilməlidir?***

- Təbii ki, bunlar eyni mərkəzdən fəaliyyət göstərirlər. Mən həm ölkəmizdə, həm Ermənistanda, həm də onlarla bir yerdə Avropada olanlarının da müsahibələrini izləyirəm və baxıram. Onlar hamısı erməni puluna fəaliyyət göstərir və eyni tapşırığı icra edirlər. Ötən gün onlardan biri heç bir əsası olmadan, heç bir fakta söykənmədən Azərbaycan Ordusu haqqında yalan, şər-böhtan xarakterli çıxışlar edirdi. Bu insanlar bir növ çayxana söhbətini televiziya vasitəsilə ictimaiyyətə çatdırırlar. Ümumiyyətlə, hər bir məsələ araşdırılmalıdır. Əgər o ordu haqqında böhtan xarakterli fikirlər səsləndirirsə, deməli o insanda ümumiyyətlə, vətənpərvərlik hissi yoxdur. Bu insanlar erməndən çox ermənidirlər. Eləcə də Leyla Yunus dəfələrlə Ermənistana qeyri-qanuni səfərlər edib. Onun hər bir Avropa ölkəsində bir neçə böyük mülkiyyətləri, biznes strukturu və s. vardır. Bunlar hamısı erməni pulu ilə əldə edilib. Gündə bir təşkilat yaradılır və adını gah Azərbaycan Xalq Hərəkatı, gah da Milli Şura qoyurlar. Onların işləri və gücləri ancaq yalan danışmaqdan ibarətdir. Bilirsiniz ki, Fransada Paris Notr-Dam Kilsəsi yanıb. Düşündüm ki, onlar indi çıxıb deyəcəklər ki, bunu da Azərbaycan iqtidarı edib və yaxud da niyə onlar gəlib bunu söndürməyiblər. Çünki dünyada hansı hadisə baş verirsə, həmin hadisələri Azərbaycan iqtidarının üzərinə atırlar. Ən əsası odur ki, xalqımız bütün bunları öz gözü ilə görür, başa düşür və onların düzgün yerini göstərir.

# Bakıda "Dini-ideoloji təhlükəsizlik və media" mövzusunda konfrans keçirilib



***Bakıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Mətbuat Şurasının birgə təşkilatçılığı ilə "Dini-ideoloji təhlükəsizlik və media" mövzusunda konfrans keçirilib. Konfransda DQİDK və MŞ rəhbərliyi, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Milli Elmlər Akademiyası, Bakı Dövlət Universiteti, Qafqaz Müsəlmanları İdarəsinin nümayəndələri, KİV-in rəhbər şəxsləri, jurnalistlər və ictimaiyyət nümayəndələri iştirak ediblər.***

Tədbiri giriş sözü ilə açan DQİDK-nin sədri Mübariz Qurbanlı Azərbaycanda dini-ideoloji təhlükəsizlikdə medianın böyük rol oynadığını diqqətə çatdırıb. O, qeyd edib ki, media radikal fikirlərin qabardılaraq, cəmiyyətdə yayılmasına yol verməməlidir. Onun sözlərinə görə, medianın cəmiyyətə informasiyanı düzgün çatdırmasının böyük əhəmiyyəti var.

Tədbirdə çıxış edən MŞ sədri Əflatun Amaşov isə bildirib ki, jurnalistlərin dini mövzuda biliklərinin artırılması istiqamətində xeyli tədbirlər həyata keçirilib və bu gün də bu tədbirlər davam etdirilməkdədir. O, qeyd edib ki, bu gün Azərbaycan mediası kifayət qədər inkişaf edib və baş verən hadisələrə milli maraqlar nöqteyi-nəzərindən yanaşır.

Digər çıxış edən konfrans iştirakçıları bu kimi tədbirlərin keçirilməsinin mühüm əhəmiyyət kəsb etdiyini qeyd ediblər. Bldirilib ki, ideoloji müstəvidə din sahəsində mövcud olan problemlərdən biri də dini kimliyimizin milli kimliyimizə qarşı qoyulmasıdır və bəzi dini qruplar dini kimliyimizlə milli kimliyimizi məqsədli şəkildə qarşı-qarşıya qoyurlar. O cümlədən, azərbaycançılıq, nəinki islama zidd deyil, əksinə, özündə dinimizlə bağlı elementləri ehtiva edir. Bunu özündə ən gözəl formada əks etdirən üçrəngli bayrağımızdır.

Konfransda çıxış edənlər dini təhlükəsizliyin təmin edilməsində medianın rolunun vacibliyini qeyd ediblər və media mənsublarının dini biliklərinin artırılması üçün bu kimi tədbirlər mühüm əhəmiyyət kəsb etdiyini bildiriblər.

**Rövşən NURƏDDİNOĞLU**

# Dövlət Sərhəd Xidməti inkişaf edərək ölkəmizin sərhədlərini mühafizə etməyə qadir olan quruma çevrilib

***Dövlət Sərhəd Xidmətində (DSX) hərbi qulluqçuların vətənpərvərlik ruhunda tərbiyə olunması, ölkəmizdə qanunçuluğun və hüquq sisteminin inkişafı istiqamətində əldə olunan nailiyyətlərin təbliği ilə bağlı mütəmadi olaraq tədbirlər həyata keçirilir.***

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, bu tədbirlər çərçivəsində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının Lənkəran sərhəd dəstəsində Hərbi Məhkəmə orqanlarının rəhbər heyətinin şəxsi heyətlə görüşü keçirilib.



Dövlət himninin səsləndirilməsi ilə başlanan tədbirdə Vətən uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Şirvan Apellyasiya Məhkəməsinin Hərbi Kollegiyasının sədri Rauf Cəfərovun və Cəlilabad Hərbi Məhkəməsinin sədri Vüqar Əhmədovun iştirakı ilə keçirilən görüşdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ardıcıl olaraq həyata keçirdiyi uğurlu siyasət nəticəsində respublikamızda əmin-amanlığın, ictimai-siyasi sabitliyin əldə olunmasından, qanunçuluğun və hüquq sisteminin inkişafı istiqamətində görülən işlərdən və Dövlət Sərhəd Xidmətinin sürətlə inkişaf edərək ölkəmizin sərhədlərini mühafizə etməyə qadir olan bir quruma çevrilməsindən danışılıb.




Tədbirdə cinayət hadisələrinin qarşısının alınması, hüquq qaydalarının və hərbi intizamın möhkəmləndirilməsi, hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarının pozulması nəticəsində hansı ağır nəticələrə səbəb olması, onların aradan qaldırılması üzrə profilaktik işin aparılması istiqamətində hərbi qulluqçulara müvafiq tövsiyələr verilib və onları maraqlandıran suallar cavablandırılıb.

## Latviya jurnalında Azərbaycanın 10 milyonuncu sakini barədə məlumat dərc olunub

Latviyanın "Mihalmag" jurnalında Azərbaycanın 10 milyonuncu sakini barədə məlumat dərc olunub. Yazıda 10 milyonuncu sakin - Mehriban Həsənova və onun valideynləri barədə məlumat verilir. Qeyd olunur ki, Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva körpəni ziyarət ediblər. On milyonuncu sakinin şərəfinə paytaxt Bakıda atəşfəşanlıq təşkil olunduğu bildirilir.

# Milli Məclisin deputatları Səbail rayonu 189-190 nömrəli tam orta məktəbdə oldular

*Dünən Yeni Azərbaycan Partiyasının təşəbbüsü və YAP Səbail rayon təşkilatının təşkilatçılığı ilə Milli Məclisin deputatları Şəmsəddin Hacıyev, Aydın Mirzəzadə və Kamilə Əliyeva Səbail rayonunda yerləşən 189-190 nömrəli tam orta məktəbin qonağı oldular.*





Deputatlar məktəbdə mövcud təlim-təhsil şəraiti, yaradılan tədris və mənəvi-psixoloji mühitlə tanış oldular, sinif otaqlarını gəzdilər, müxtəlif yaş qrupundan olan şagirdlərlə fikir mübadiləsi apardılar, məktəbdə yaradılan şərait, müəllim-şagird münasibətləri, tədrisin keyfiyyəti, şagirdlərə göstərilən psixoloji xidmət, tədris kurrikulumlarının müasir tələblərə uyğunluğu haqqında şagirdlərin fikirlərini öyrəndilər, müəllim və şagirdlərə müvafiq tövsiyələrini verdilər.

İbtidai siniflərdə dərs prosesi ilə tanış olan millət vəkilləri şagirdlərə ölkəmiz, dövlət rəmzlərimiz, Prezidentimiz, Dağlıq Qarabağ problemi və torpaqlarımızın işğaldan azad olunması üçün Ali Baş Komandan və Azərbaycan Ordusunun rolu haqqında suallar verdilər və şagirdlərin bütün bu məsələlər haqqında məlumatlı olmalarından, eləcə də, suallara yüksək vətənpərvərlik ruhunda dolğun cavablar vermələrindən razı qaldılar. I sinif şagirdlərinin Azərbaycan Respublikasının Dövlət himnini, Səməd Vurğunun, həmçinin Nizami və Nəsimi poeziyasından kiçik şeir nümunələrini ifa etmələri qonaqları çox məmnun etdi.

IX və X sinif şagirdləri ilə görüşdə təhsil sahəsində həyata keçirilən islahatlar, şagirdlərin bu yeniliklərə münasibəti barədə fikir mübadiləsi aparıldı. Qonaqlarla şagirdlər arasında yaranmış səmimi ünsiyyət şagirdlərin Milli Məclis üzvlərinə bəzi təkliflər verməsinə şərait yaratdı.

Məktəblilər Milli Məclisi ziyarət etmək, deputatlar və binadakı iclas zalları ilə tanış olmaq haqqında çoxsaylı istəklərini bildirdilər. Deputatlar şagirdlərin istəklərini müsbət münasibət bildirərək, yaxın günlərdə məktəbin bir qrup müəllim və şagirdinin Milli Məclisə ekskursiyasını təşkil edəcəklərinə dair söz verdilər.

Sonra məktəbin Heydər Əliyev Muzeyi zalında yuxarı sinif şagirdlərinin iştirakı ilə "dəyirmi masa" təşkil olundu. "Dəyirmi masa"da millət vəkilləri məktəblilərlə səmimi fikir mübadiləsi apardılar, xüsusilə, son dövrdə narahatçılıq doğuran bəzi xoşagəlməz hadisələrin obyektiv və subyektiv səbəblərini, problemin həlli imkanlarını müzakirə etdilər, şagirdlərin dərsləri ilə və məktəbdənkənar vaxtlarının necə təşkil olunması ilə maraqlandılar. İlk toxunulan mövzu şagirdlərin dünyagörüşünün formalaşmasında müstəsna rolu olan mütaliə oldu. Məktəbin direktoru Ceyran Kuliyeva son illərdə Təhsil Nazirliyi tərəfindən də bu sahəyə xüsusi önəm verilməsindən, müxtəlif tədbirlərin, müsabiqə və yarışların, eyni zamanda, yüksək səviyyəli "Oxu günləri"nin təşkili barədə məlumat verdi. Şagirdlərin asudə vaxtının səmərəli təşkili məqsədi ilə həm məktəb, həm də uşaqların öz təşəbbüsləri ilə keçirilən tədbirlər də qonaqlar tərəfindən maraqla qarşılandı. Millət vəkilləri tərəfindən şagirdlərə sosial şəbəkələrdən məqsədyönlü istifadə etmələri, cəmiyyətdə baş verən hadisələrə düzgün və düşünülmüş münasibət bildirmək bacarığına yiyələnmələri tövsiyə olundu.

Millət vəkilləri məktəbin psixoloqu Səbinə Kərimova, direktor müavinləri və bir qrup müəllimlər ilə görüşdülər, şagirdlərlə aparılan psixoloji təlimin səviyyəsi, məktəblilərin ümumi psixoloji vəziyyəti, şagirdlərə göstərilən psixoloji dəstəyin təşkili səviyyəsi ilə maraqlandılar.

Qonaqlar məktəbdə yaradılan şəraiti bütün keyfiyyət göstəricilərinə görə yüksək qiymətləndirdilər, məktəbdə təhsil və tədrisin keyfiyyəti, eləcə də, müəllim-şagird münasibətlərindən məmnunluqlarını ifadə etdilər. Deputatlar məktəbdə təlim-tədris mühiti və şagirdlərin hazırlıq səviyyəsindən razı qaldılar və məktəbdən xoş təəssüratlarla ayrıldılar.

**RƏFİQƏ**

## Sona Vəliyeva: "Bu igidlər böyük zəfərin əsasını qoydular"



"Biz siz anaların qarşısında baş əyirik. Sizin övladlarınız torpaqlarımızı qəhrəmancasına müdafiə ediblər. Onların çoxu Vətən yolunda canlarından keçib". SİA-nın məlumatına görə bu sözləri "Kaspi" Təhsil Liseyinin rəhbəri Sona xanım Vəliyeva aprel döyüşçülərinə həsr olunmuş tədbirdə bildirib.

O, əlavə edib ki, biz şəhidlərin ruhuna borcluyuq: "Onları heç vaxt unudulmağa qoymayacağıq. Bu igidlər böyük zəfərin əsasını qoydular. İnşallah biz o zəfərə doğru gedəcəyik. Bu gün burada toplanmağımız bizim nə qədər həmrəy olmağımızın nümunəsidir. Aprel zəfərinin təntənəsinə həsr olunan bu gecədə "Kaspi" Təhsil Liseyinin şagirdləri də məharətlə çıxış etdilər. Mən sizin hər birinizə ürək dolusu təşəkkür edirəm. Liseyin qonağı olanlar yaxşı bilirlər ki, təhsil ocağında vətənimizin önəmli günləri daim xatırlanın və milli yaddaş dərsi keçirilir. Bu gün burada bu şagirdlər sözün əsl mənasında milli yaddaş dərsi verdilər. İstedadlı uşaqların hər birinə öz təşəkkürümü bildirirəm".

*Jalə*

## "Vətəndaşlarımız ölkədə aparılan siyasəti dəstəkləyir"



"Fransanın "Opinion way" şirkət tərəfindən aparılan sorğu nəticələrinə əsasən, Azərbaycan vətəndaşlarının 90 faizinin prezidentin islahatlarını dəstəkləməsi, vətəndaşlarımızın ölkədə aparılan siyasətə dəstəyinin mühüm ifadəsidir". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Kamilə Əliyeva deyib. 2018-ci ilin aprel ayında keçirilən prezident seçkilərindən sonrakı dövrdə Azərbaycanda bütün sahələr üzrə aparılan siyasət və islahatların əhatəlilik və keyfiyyət baxımından daha da fərqli olduğunu deyən deputat söyləyib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən işlərin hər biri xalqımızın, vətəndaşlarımızın daha yaxşı və rahat yaşamasına istiqamətlənib.

Onun sözlərinə görə, son 1 il müddətində aparılan islahatlar nəticəsində əldə olunan effektiv nəticə "Opinion way" şirkətinin apardığı sorğuda da özünü təsdiq etdi: "2019-cu ilin ilk 3 ayının nəticələrinə diqqət etsək görərik ki, qısa müddət ərzində Azərbaycanın ÜDM-si 3 faiz, qeyri-neft sənayesi 15 faiz artıb, inflyasiya cəmi faiz olub. Bundan başqa ilin ilk aylarında başlayaraq, əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində minimum əmək haqlarının, pensiyaların, sosial müavinətlərin, tələbə təqaüdlərinin artırılması nəticəsində vətəndaşlarımızın daha da yaxşı yaşamasına istiqamətlənib. İslahatlar nəticəsində iqtisadiyyatda şəffaflığın artması büdcə gəlirlərini son 2 ayda 200 milyon manat artırıb". K. Əliyeva vurğulayıb ki, Azərbaycanın qısa zaman kəsiyində əldə etdiyi uğurlar təkcə ölkə daxilində deyil, eləcə də xarici təşkilatlar, ekspertlər tərəfindən də yüksək qiymətləndirilir: "Bunun nəticəsidir ki, Azərbaycan beynəlxalq təşkilatların reytinqində irəliləyir, beynəlxalq aləmdə mövqeyini daha da gücləndirir".

***Nailə Məhərrəmova***

## Bakıda Azərbaycan-Avstriya işgüzar görüşü keçirilib



İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə Bakıda Azərbaycan-Avstriya işgüzar görüşü keçirilib. AZPROMO-dan AZƏRTAC-a bildirilib ki, görüşdə energetika, maşınqayırma, İKT, qida, bank, əczaçılıq və digər sahələrdə fəaliyyət göstərən 20-dən çox avstriyalı iş adamı iştirak edib. AZPROMO-nun rəhbəri vəzifəsini icra edən Yusif Abdullayev ölkəmizdə yaradılmış əlverişli biznes və investisiya mühiti barədə məlumat verib, avstriyalı iş adamlarını bu imkanlardan yararlanmağa və azərbaycanlı sahibkarlarla fəal əməkdaşlığa dəvət edib.

Avsrtiya Federal İqtisadiyyat Palatasının Türkiyə, Azərbaycan və Gürcüstan regionu üzrə xarici iqtisadi əlaqələr nümayəndəsi Georg Karabaczek görüşün işgüzar dairələri arasında əlaqələrinin genişləndirilməsində əhəmiyyətini, səfərin məqsədinin də Azərbaycan və Avstriya iş adamları arasında əlaqələrin genişləndirilməsi, Azərbaycanın investisiya mühiti və biznes imkanları ilə yaxından tanışlığı olduğunu bildirib. İştirakçılara Azərbaycanın investisiya imkanları barədə təqdimat keçirilib.

# Qarabağ məsələsinin tənzimlənməsində pozitiv irəliləyiş olub

***Rusiyanın Kommersant nəşri 15 aprel tarixində Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov, Ermənistanın xarici işlər naziri Zöhrab Mnasakanyan və Rusiyanın xarici işlər naziri Sergey Lavrov arasında Moskvada ATƏT-in Minks qrupunun həmsədrlərinin iştirakı ilə baş tutan görüşünə toxunub və qeyd olunub ki, uzun müddət ərzində ilk dəfə olaraq Qarabağ məsələsinin tənzimlənməsində pozitiv irəliləyiş olub.***

SİA məlumat verir ki, bu barədə Ermənistana məxsus tert.am saytında məlumat dərc olunub. Saytda qeyd olunur ki, Rusiyanın xarici işlər naziri Sergey Lavrovun, ATƏT-in Minks qrupu həmsədrlərinin, və ATƏT sədrinin Dağlıq Qarabağ üzrə şəxsi nümayəndəsi Anjey Kaspşikin iştirakı ilə üç saat davam edən danışıqlardan sonra, Azərbaycanın və Ermənistanın XİN rəhbərləri nəhayət ki, irəliyə doğru addım atdılar və onlar təmas xəttində kənd təsərrüfatı işlərinin gedişi zamanı stabilliyin təmin edilməsi və əsirlikdə olanların qohumlarının ziyarət edilməsi barədə razılığa gəliblər.

*İnam Hacıyev*



# Azərbaycandakı demoqrafik inkişaf dünya mətbuatının diqqətindədir

***Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu islahatlar kursu ölkəmizdə dayanıqlı inkişafın təmin olunmasına imkan yaradıb. Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycan iqtisadi, siyasi, mədəni, sosial və digər sahələrdə çox mühüm nailiyyətlər əldə edib və ölkəmizin beynəlxalq mövqeyi daha da möhkəmlənib.***

Dövlət başçısının sosialyönümlü istiqamətində, apardığı uğurlu siyasət nəticəsində, əhalinin sosial rifah halı yaxşılaşıb, işsizliyin və yoxsulluğun aradan qaldırılması istiqamətində mühüm addımlar atılıb. Bu siyasətin mərkəzində isə, Azərbaycan vətəndaşı dayanır. Azərbaycanda son illər baş vermiş həm siyasi, həm də sosial-iqtisadi dəyişikliklər demoqrafik inkişafa ciddi təsirini göstərib. Ölkəmizdə əhalinin sağlamlığının və həyatının yaxşılaşdırılması hesabına uzunömürlülük, nikah və boşanma proseslərinin, bütünlükdə, cəmiyyətin və ayrılıqda hər bir ailənin mənafeyinə uyğun tərzdə nizamlanması, ictimai tərəqqinin həm yaxın, həm də uzaq gələcəyə perspektivləri nəzərə alınmaqla, miqrasiya proseslərinin tənzimlənməsi və digər amillər ölkəmizdə demoqrafiyanın inkişafına təsirsiz ötüşməyib. Bunun real təzahürü ölkə əhalisinin sabit artım tempinin davam etməsində aydın şəkildə özünü göstərir. Əhalisinin sayı hər il sabit şəkildə artaraq 10 milyona çatan ölkəmizdə dayanıqlı sosial-iqtisadi tərəqqi, sosial siyasət davamlı xarakter almaqla, demoqrafik inkişafa təkan verir. Bildiyimiz kimi, Ağdərə rayonunun sakinləri, hazırda Ağdam rayonunun Baş Güneypəyə kəndində qeydiyyatda olan məcburi köçkün Ocaqova Nigar Çərkəz qızı ilə Həsənov Rauf Yunis oğlunun ailəsində Azərbaycanın 10 milyonuncu sakininin dünyaya gəlməsi hər bir azərbaycanlının fərəhinə səbəb oldu. Azərbaycanda baş verən bu inkişaf dünyanın bir çox ölkələrinin mətbuat səhifələrinin gündəmindədir. İndoneziyanın ingilis dilində nəşr edilən nüfuzlu "The Jakarta Post" qəzeti Azərbaycanın 10 milyonuncu sakininin dünyaya gəlməsi barədə xüsusi məqalə dərc edib. Məqalədə bu xəbərin ölkə əhalisi tərəfindən böyük sevinclə qarşılandığı və Azərbaycanın 10 milyon əhalisi olan ölkələr klubuna daxil olması ilə əlaqədar hər yerdə bayram tədbirlərinin keçirildiyi vurğulanır.





https://www.tv8.com.tr/ iGoogle Google Maps News Beliebt YouTube Google Übersetzer HELBLING e-z...-ezone.com/ Apple BIG CHALLENGE

www.zeitung.ch

Aktuell
Leserbriefe
Bildung
Zeitungen
Zeitschriften
Online-Medien
Verlage
Medien Schweiz
Kontakt
Impressum
Werbung
Privacy Policy

Suchen Sie in der Presseschau von zeitung.ch

Nutzen Sie die Presseschau und suchen Sie nach Ihrem Thema. Die Presseschau von zeitung.ch durchsucht die wichtigsten Tageszeitungen der Schweiz.

Presseschau Zu suchende Schlüsselwörter Suche

## Die Einwohnerzahl von Aserbaidschan hat 10 Millionen Menschen erreicht

Neu auf zeitung.ch: Leserbriefe
Ihre Meinung interessiert uns. Schreiben Sie einen Leserbrief.

Am 6. April um 03:30 Uhr wurde in Aserbaidschan ein Babygirl geboren. Die Zahl der Einwohner des Landes erreichte damit 10 Millionen Menschen.

Die Recherchen haben ergeben, dass die Einwohnerzahl Aserbaidschans im Jahre 1897 1 Million 807 Tausend Menschen zählte. Als am 28. Mai 1918 die Demokratische Republik Aserbaidschan ausgerufen wurde, zählte die Bevölkerung des Landes 1,9 Millionen und nach der Wiederherstellung der Unabhängigkeit im Jahre 1991 7,2 Millionen Menschen. Im Jahre 1997 lag sie bei 7 Millionen 847.500 Menschen.

Der Erste Weltkrieg, ausländische Intervention, Bürgerkrieg, Völkermord an den Aserbaidschanern und andere Ereignisse in den Jahren 1913-1920 übten einen sehr negativen Einfluss auf die Einwohnerzahl und die demographische Entwicklung des Landes. Aserbaidschans Einwohnerzahl sank zwischen diesen Jahren um 387 Tausend Menschen und fiel von 2 Millionen 339 Tausend Menschen auf 1 Million 952 Tausend Menschen.

Das Land erlebte die nächste demografische Krise während des Großen Vaterländischen Krieges von 1941 bis 1945. Die Bevölkerungszahl Aserbaidschans sank Anfang 1945 von 3 Millionen 274,3 Tausend Menschen auf 2 Millionen 705,6 Tausend Menschen. Das Vorkriegsniveau erreichten wir erst nach Verlauf von 10 Jahren, also im Jahre 1955.

Auch die Deportation von mehr als 150.000 Aserbaidschanern aus Armenien in den Jahren 1948-1953, die Besetzung von 20% unserer Gebiete als Folge der im Jahr 1988 begonnenen bewaffneten Annexionspolitik Armeniens gegen Aserbaidschan, die Verwandlung von mehr als 1 Million Bürger Aserbaidschans in die Flüchtlinge und Binnenvertriebene und schließlich der Karabach-Krieg wirkten auf die demografische Situation im Lande sehr negativ aus.

In den Jahren 1991-1997 ging die Zahl der Eheschließungen in der Republik von 74,4 auf 47.000 dramatisch zurück, und die Zahl der Scheidungen begann zu steigen.

Das stärkste Bevölkerungswachstum in Aserbaidschan erfolgte Anfang der 1960er Jahre. In der ehemaligen Sowjetunion betrug die Geburtenrate pro 1000 Einwohner 24,9 Menschen und der natürliche Bevölkerungszuwachs lag bei 17,8 Menschen, während sie in Aserbaidschan 42,6 bzw. 36,9 betrug. Aber seit 1965 gingen die Geburten- und natürlichen Wachstumsraten der Bevölkerung in Aserbaidschan allmählich zurück.

Das "Konzept für die demografische Entwicklung der Republik Aserbaidschan" wurde per Dekret von Nationalleader Heydar Aliyev vom 9. Dezember 1999 gebilligt.

Küsnachter
Stadt-Anzeiger
Zürcher Oberländer
Zürichsee-Zeitung
ZRZ Zürcher Regionalzeitungen
Der Landbote
ZürcherUnterländer

Leserbriefe

Ihre Meinung interessiert uns! -> Leserbrief schreiben

Die Einwohnerzahl von Aserbaidschan hat 10 Millionen Menschen erreicht

Am 6. April um 03:30 Uhr wurde in Aserbaidschan ein Babygirl geboren. Die Zahl der Einwohner des Landes erreichte damit 10 Millionen Menschen. Die Recherchen haben ergeben, dass die Einwohnerzahl Aserbaidschans im Jahre 1897 1 Million 807 Tausend... weiter lesen

BAZ/Tagesanzeiger

Die BAZ müsste eigentlich in "Basler-Anzeiger umbenannt werden, gleicht sie dioch mehr und mehr dem Tagesanzeiger. Dieselben Artikel, Fotos, Layout. Die gleichen Kreuzworträtsel mit schlecht lesbaren, farbig unterlegten Fragekästchen. Neuerdings ist... weiter lesen



Mikal magazine

10 000 000-cu



DECYDENT & DECISION MAKER

Strona główna | O nas | Archiwum | Lobbing | Linki | KATEGORIE | Kontakt | IMR | Decydent.eu

Strona główna » Archiwum » nr 209, kwiecień 2019, ISSN 2300-6692 » Z KRONIKI BYWALCA » Z KRONIKI BYWALCA

Z KRONIKI BYWALCA

14 kwietnia 2019

**Azerbejdżan - 10 milionów obywateli**

**W ostatnich dniach sztuczne ognie oraz liczne koncerty uświetniły narodziny dziesięciomilionowej obywatelki Azerbejdżanu.**

Prezydent Azerbejdżanu Ilham Alijew z Małżonką odwiedzili Mehriban w szpitalu

Dziewczynka, Mehriban Hasanowej, córka Raufa Hasanowa i Nigar Ojagowej, waży 3,6 kg, a wzrostu ma 52 cm, urodziła się 6 kwietnia br. w Republikańskim Ośrodku Okołoporodowym w Baku.

Dziewczynkę i jej rodziców odwiedzili z kwiatami i gratulacjami prezydent Azerbejdżanu Ilham Alijew z małżonką Mehriban.

Azerbejdżan przywiązuje wielką wagę do wzrostu demograficznego, w związku z licznymi projektami i programami rozwojowymi, które wymagają wysiłku ze strony ludności.

Azerbejdżan jest bardzo stabilnym, najbogatszym i najludniejszym krajem Południowego Kaukazu, zapewniającym – dzięki stałym dochodom z eksploatacji ropy naftowej i gazu ziemnego – doskonałe warunki dla stałego wzrostu dobrobytu obywateli.

Warto wiedzieć, że w momencie proklamowania w 1918 roku niepodległej Demokratycznej Republiki Azerbejdżanu kraj liczył 1,9 miliona mieszkańców, zaś w 1991 roku, kiedy powstała Republika Azerbejdżanu, w tym kraju żyło 7,2 miliona ludzi.



SIGN IN / JOIN HOME REDAZIONE CONTATTI COLLABORA GALLERY PUBBLICITÀ SU NG SOSTIENICI! UTILITÀ APPUNTAMENTI

Notizie Geopolitiche

Quotidiano indipendente on line di geopolitica e politica estera - dal 2011

PRIMO PIANO PANORAMA FOCUS L'INTERVISTA L'ANALISI ECONOMIA IL PUNTO SPECIALE LIBIA

IL PUNTO | QUI ASIA CENTRALE

## AZERBAIJAN. NASCE IL DIECIMILIONESIMO CITTADINO

*Demografia e politica nel Caucaso del sud.*

13 Aprile 2019

*di Daniel Pommier Vincelli* * –

Il 6 aprile 2019, con la nascita di una bambina, la popolazione dell'Azerbaigian ha superato i dieci milioni di abitanti. La notizia ha avuto un grande impatto mediatico nel Paese caucasico. Il presidente della Repubblica Ilham Aliyev e la first lady Mehriban Aliyeva si sono recati in visita alla neonata e alla sua famiglia, profughi interni provenienti dal distretto di Agdam, uno dei territori dell'Azerbaigian occupati dalle forze armate dell'Armenia dal 1993.

Il tema della relazione tra crescita demografica e Nation Building è stato sempre presente nel Caucaso meridionale, sin dalla prima esperienza statuale nel biennio 1918-1920. Se si leggono i documenti della delegazione azerbaigiana alla conferenza di pace di Parigi del 1919 – quando il Paese provò a farsi riconoscere dalla comunità internazionale prima di cadere vittima dell'espansionismo sovietico – si vedrà che sono densi di dettagliate statistiche demografiche; statistiche che descrivono l'espansione della popolazione azerbaigiana, all'interno del complicato mosaico etnico e nazionale transcaucasico.

Il tema della crescita della popolazione si sostiene mutualmente con il diritto della nazione ad esistere e ad affermare un proprio cammino indipendente. Nel 1991, quando dopo settant'anni di dominio sovietico l'Azerbaigian riguadagna l'indipendenza, ha poco più di 7 milioni di abitanti, che salgono a 9 nel 2010 per sfondare la cifra simbolica dei 10 milioni con la nascita del 6 aprile. Oggi, come nel 1919, la classe dirigente azerbaigiana rivendica il successo della crescita demografica che diventa al tempo stesso la ragione e il prodotto dell'esperienza nazionale. Lo stesso presidente Ilham Aliyev ha affermato che "La popolazione del paese è aumentata di 1,7 milioni negli ultimi 15 anni. Aumenta la nostra forza e il potere del nostro paese. Ciò mostra che il nostro sviluppo socioeconomico è in corso. Perché la crescita della popolazione è direttamente correlata alla situazione sociale". Da sottolineare che lo sviluppo socioeconomico e demografico nell'Azerbaigian prosegue nonostante gli oltre 25 anni di conflitto con l'Armenia, che ha causato più di un milione di rifugiati e profughi interni azerbaigiani.

Accanto agli elementi di continuità vi sono tuttavia delle rilevanti trasformazioni globali nel nesso tra dimensione demografica e politica. La concezione contemporanea vede la crescita della popolazione come necessaria per sostenere lo sviluppo economico e consentire il mantenimento della popolazione dipendente, come gli anziani: la crescita deve essere però implementata con i criteri della sostenibilità ambientale, economica e sociale. Non a caso il recente Rapporto sullo Stato della popolazione mondiale 2019 delle Nazioni Unite correla in profondità i temi demografici (dal tasso di fertilità alla salute riproduttiva, alla speranza di vita) ai cosiddetti obiettivi del millennio per lo sviluppo sostenibile.

Tutte le statistiche del rapporto Onu mostrano indicatori positivi per l'Azerbaigian: dalla distribuzione tra le coorti generazionali, al tasso di parità di genere nell'educazione primaria, al livello di preparazione del personale medico che gestisce le gravidanze. La repubblica transcaucasica si trova in un momento felice dello sviluppo umano godendo di quello che i demografi definiscono il "bonus demografico", quando il rapporto tra le componenti demografiche della popolazione è in equilibrio consentendo sviluppo economico e sociale.

*Ricercatore TD Sociologia dei fenomeni politici, Dipartimento di Comunicazione e Ricerca Social – Sapienza università di Roma.*

PRIMO PIANO

LIBIA. CONTINUANO I COMBATTIMENTI. LA CONTROFFENSIVA DIPLOMATICA DI AL-SERRAJ

SUDAN. GOLPE MILITARE PONE FINE ALL'ERA AL-BASHIR

ISRAELE. VINCE ANCORA NETANYAHU. PER TRUMP È LA "MIGLIORE POSSIBILITÀ PER...

LIBIA. SCONTRI A POCHI CHILOMETRI DA TRIPOLI. CONTROFFENSIVA DI AL-SERRAJ

PANORAMA

LIBIA. CONTROFFENSIVA DEL GOVERNO DI TRIPOLI, RIPRESA AZIZIA

KURDISTAN IRQ. RINVENUTA UN'ALTRA FOSSA COMUNE DEL GENOCIDIO VOLUTO DA SADDAM...

FACEBOOK E ISTAGRAM BLOCCATI. PROBLEMI ANCHE PER WARSHSAPP

SUDAN. SOSTITUITO IL CAPO DELLO STATO PROVVISORIO CON IL "PIÙ PULITO"...

FRANCIA. PARIGI ACCOGLIERÀ 20 MIGRANTI DELL'ALAN KURDI

SIRIA. RAID ISRAELIANO SU BASE IRANIANA

Rumıniyanın "AGERPRES" xəbər agentliyi Azərbaycanın on milyonuncu sakininin dünyaya gəlməsi ilə əlaqədar yaydığı məlumatda bildirilir ki, keçmiş Ağdərə rayonunun sakinləri, hazırda Ağdam rayonunun Baş Güneypəyə kəndində qeydiyyatda olan məcburi köçkün ailəsində Azərbaycanın 10 milyonuncu sakini dünyaya gəlib. Prezident İlham Əliyev və Birinci Xanım Mehriban Əliyeva bu əlamətdar hadisə münasibətilə Azərbaycan xalqını və körpənin ailəsini təbrik edib, hədiyyələr təqdim ediblər. Bununla əlaqədar Bakıda atəşfəşanlıq və konsert təşkil olunub. Yazıda o da vurğulanır ki, Azərbaycan hökumətinin əsas məqsədləri yoxsulluğun azaldılmasında və həyat səviyyəsinin yüksəldilməsində uğurlar qazanmaq, ölkənin sosial-iqtisadi inkişafı ilə əhalinin rifahını artırmaqdır.

Polşa mətbuatı da bu hadisəyə laqeyd qalmayıb. "Decydent" jurnalında Azərbaycanın 10 milyonuncu sakini barədə jurnalist Yasek Potoskinin məqaləsi dərc olunub. Yazıda oxuculara Azərbaycanın inkişafı, dünyadakı rolu və regiondakı əhəmiyyəti, həyata keçirdiyi layihələr barədə qısa məlumatlar təqdim olunur.

İsveçrənin "www.zeitung.ch" portalında isə "Azərbaycan sakinlərinin sayı 10 milyon nəfərə çatıb" sərlövhəli məqalə verilib. Məqalədə son əsrlərdə Azərbaycandakı demoqrafik inkişafa nəzər salınıb. Qeyd edilib ki, 1897-ci ildə Azərbaycanda əhalinin sayı 1,807 milyon nəfər, Birinci Dünya müharibəsindən əvvəl isə 2,339 milyon nəfər olub. Dünya müharibəsi, azərbaycanlılara qarşı soyqırımı, xarici müdaxilələr ölkə əhalisinin sayına mənfi təsir göstərib və 1920-ci ildə əhalinin sayı 1,952 milyon nəfərə düşüb. Məqalədə, həmçinin, 1948-1953-cü illərdə Ermənistandan 150 min azərbaycanlının Azərbaycana deportasiyası, Ermənistanın Azərbaycana hərbi müdaxiləsi, həmçinin, 1988-ci ildə bu ölkədəki azərbaycanlıların son nəfərədək qaçqına çevrilməsi nəticəsində, Azərbaycanda demoqrafik mənzərənin dəyişdiyi diqqətə çatdırılıb.

Xatırladaq ki, 2003-cü ilin əvvəlindən ölkə əhalisinin sayı 18 faizdən çox artıb. Azərbaycanda hər il doğulanların sayı artır. Belə ki, 2018-ci ildə ölkədə 139 min doğulmuş körpə qeydə alınıb. Ölkəmizdə doğulanların sayı ölənlərin sayını 2-2,5 dəfə üstələyir. 2018-ci ildə daimi yaşamaq üçün ölkəmizə gələnlərin sayı gedənlərin sayından iki dəfədən çox olub.

Əhalinin artımı qarşısında genişmiqyaslı tədbirlər görülür, yeni uşaq bağçaları və məktəblər, müalicə müəssisələri, idman kompleksləri istifadəyə verilir. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına əsaslanmaqla, ölkəmizdə davamlı demoqrafik inkişafın təmin edilməsi üçün əhali sakinliyi və demoqrafik inkişaf sahəsində yeni Dövlət Proqramı layihəsi hazırlanıb ki, layihədə ailə institutunun möhkəmləndirilməsi və ailə dəyərlərinin təbliği, ailələrə, xüsusilə, gənc ailələrə sosial-iqtisadi dəstəyin gücləndirilməsi, əhalinin reproduktiv sağlamlığının gücləndirilməsi və həyat şəraitinin təhlükəsizliyinin yüksəldilməsi kimi prioritet istiqamətlər müəyyən olunub.

Əlbəttə ki, Azərbaycan əhalisinin sayının sürətli artımı hökumətin düzgün demoqrafik siyasətinin və ölkənin davamlı iqtisadi inkişafının nəticəsidir. Prezident İlham Əliyevin sosial-iqtisadi inkişaf strategiyası nəticəsində, bütün sahələrdə mühüm tarixi nailiyyətlərə imza atan, iqtisadi qüdrətini artıran, sabitlik, təhlükəsizlik, əmin-amanlıq məkanı olan ölkəmizdə sosial rifah səviyyəsinin də, davamlı olaraq, yaxşılaşması özünü göstərir. Bu amillər isə demoqrafik inkişaf üçün vacib şərtlər sırasındadır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial, iqtisadi, siyasi islahatların əhali arasında təbliği"

*Bu mövzuda tədbir keçirilib*



**Dünən YAP Tərtər rayon təşkilatında "Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial, iqtisadi, siyasi islahatların əhali arasında təbliği" adlı tədbir keçirilib.**

Tədbirdə çıxış edən YAP Tərtər rayon təşkilatının sədri Ramiz Şabanov qeyd edib ki, ölkə vətəndaşlarının sosial müdafiəsinin gücləndirilməsi dövlət siyasətinin başlıca istiqamətlərindəndir: "Ötən bir ildə də Prezidentin iqtisadi sahədə həyata keçirdiyi davamlı islahatlar sistemli və ardıcıl olub. Sosialyönümlü mahiyyət daşıyan milli inkişaf modeli əhalinin sosial rifah halının daha da yaxşılaşdırılması, faydalı məşğulluğunun təmin edilməsi kimi vacib məsələləri özündə ehtiva edir".

R.Şabanov Azərbaycanın regionda, eləcə də, dünyada əsas söz sahibinə çevrildiyini bildirib: "Müstəqil Azərbaycan dövlətinin memarı və qurucu Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasi kursu böyük müvəffəqiyyətlə davam etdirən Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 16 il ərzində, möhtəşəm inkişaf göstəriciləri əldə olunmuşdur. Son 16 ilin göstəriciləri Prezident İlham Əliyev tərəfindən əsaslı və güclü iqtisadiyyat quruculuğu ilə bağlı qarşıya qoyulan hədəflərə doğru ölkəmizin inamla irəlilədiyini bir daha təsdiqləyir".

R.Şabanov bildirib ki, 11 aprel prezident seçkilərindəki möhtəşəm zəfər obyektiv reallığa əsaslanmışdır: "Prezidentliyi dövründə Cənab İlham Əliyev Azərbaycanda əhalinin bütün təbəqələrini əhatə edən sosial siyasətini həyata keçirir. Ölkə başçısının birbaşa nəzarəti ilə həyata keçirilən sosial siyasətin mərkəzində insan amili və vətəndaşların mənafeyi dayanır. Deyilənlərin təsdiqi olaraq, vurğulamaq yerinə düşər ki, Prezident seçkilərindən sonra Cənab İlham Əliyevin imzaladığı ilk Fərman şəhidlərin vərəsəliyinə veriləcək 11 min manat ödənişlə bağlı olub. Prezidentin müvafiq sərəncamları ilə şəhid ailələrinə verilən müavinətlər 300 manata, minimum pensiyaların məbləği 160 manata, minimum əmək haqları 180 manata çatdırılmış, müxtəlif növ müavinətlərin əhəmiyyətli dərəcədə artırılması ölkəmizdə reallaşdırılan sosial siyasətin verdiyi önəmli nəticələrdir".

Tədbirdə şura üzvlərindən, rayon təhsil şöbəsinin müdiri Surxay Mirzəyev, rayon təşkilatı NTQ-nin sədri Xeyri Həcər, rayon təşkilatı aparatının rəhbəri Kamil Məmmədov, şura üzvü, rayon təhsil ilk peşə məktəbinin direktoru Faiq Məmmədov, rayon təşkilatı gənclər birliyinin üzvü Şəhram Quliyev və başqaları çıxış edərək, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sosial siyasətin verdiyi nəticələrin hər bir Azərbaycan vətəndaşının, o cümlədən, tərtərlilərin gündəlik həyatlarında hiss olunduğunu bildiriblər.

**R.HÜSEYNOVA**

# Naxçıvanda ənənəvi "Kətə" festivalı keçirilir



"Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində "Kətə" festivalına start verilib. AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, festivalda muxtar respublikanın şəhər və rayonlarına xas müxtəlif çeşiddə kətə növləri və onların hazırlanması qaydaları nümayiş olunur. Festivala gələnlər müxtəlif çeşiddə kətələrin hazırlanması və süfrəyə təqdim olunmasını canlı izləmək, təndirdə bişmiş kətə çeşidlərinin dadına baxmaq imkanı əldə edirlər. Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamı muxtar respublikada milli və mənəvi dəyərlərimizin qorunub saxlanılmasına və təbliğ olunmasına hərtərəfli şərait yaradıb. Göstərilən dövlət qayğısı nəticəsində son illərdə xalq yaradıcılığının ən qədim sahələrindən sayılan süfrə mədəniyyətinin də sistemli şəkildə öyrənilməsi, inkişaf etdirilməsi və tanıdılması istiqamətində ardıcıl işlər görülür. İndiyədək yüksək səviyyədə təşkil olunaraq keçirilən "Plov", "Naxçıvan çörəkləri", "Arıçılıq məhsulları - bal", "Göycə" və digər festivallar məhz qədim diyarımızın zəngin süfrə ənənələrini özündə əks etdirməklə yanaşı, həm də bu tədbirlərə kütləvi marağın olması ilə diqqət çəkib.

# "Fərman veteranların müavinətləri arasında fərqi aradan qaldırdı"



"Bir müddət bundan öncə Azərbaycanda yeni pensiya və sosial müavinət formalarının təyin olunması ilə əlaqədar qaydaların hazırlanması istiqamətində Prezident İlham Əliyev tərəfindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə xüsusi tapşırıq verilmişdi. Ötən gün müharibə veteranlarının təqaüdünün artırılması, əlillərə baxan şəxslərə yeni təqaüdün ayrılması və digər bu istiqamətdə imzalanan Fərmanlar verilən tapşırıqların həyata keçirilməsi məqsədi daşıyır". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Musa Quliyev deyib.

Deputat bildirib ki, ölkə başçısının ötən gün imzaladığı Fərmanla yeni müavinət növü təsis olundu və digər sosial müavinətlərin də artırılması təmin edildi: "Bu müavinətlər aprelin 1-dən hesablanacaq. Bildiyiniz kimi pensiya alan Qarabağ müharibəsi veteranları ilə pensiya yaşı çatmayan müharibə veteranlar arasında fərq var idi. Bu fərq tamamilə aradan qaldırıldı və pensiya alan Qarabağ müharibəsi veteranlarının müavinətlər 6 dəfə qalxmış oldu. Əgər əvvəllər onlar 11 manat alırdısa, indi 80 manat alacaq".

M. Quliyev söyləyib ki, ölkə başçısı tərəfindən ötən gün imzalanan Fərman 18 yaşına çatmış əlil uşağa və birinci qrup əlilə qulluğa görə xüsusi sosial müavinətin verilməsi ilə bağlıdır ki, bu da 50 manat təşkil edir: " Bununla bağlı uzun müddət həm ictimaiyyətdə həm də Milli Məclisdə müzakirələr aparılıb. Cənab Prezident ötən günkü Fərmanı ilə bu məsələni də həll etmiş oldu. Ailəsinin üzvünə qulluq etməyə görə müavinət veriləcək ki, bu da Prezident İlham Əliyevin az təminatlı ailələrə qayğı və diqqətinin növbəti ifadəsidir. Cənab Prezident bu ilin əvvəlində bəyan etmişdi ki, 2019-cu il sosial müdafiə baxımından xüsusi il olacaq. Bundan sonra da əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində addımlar atılacaq. Pensiyalar, müavinətlər, təqaüdlər daha da artacaq, yeni iş yerləri yaradılacaq və digər sosial layihələr həyata keçiriləcək. Cənab Prezidentin də söylədiyi kimi, Azərbaycan dövlətinin siyasətinin mərkəzində xalqımız, onların sosial rifah halının daha yaxşılaşması dayanır".

Deputatın sözlərinə görə, Azərbaycanın iqtisadi gücün artdıqca, əhalinin sosial müdafiəsinin artırılması tədbirləri ardıcıl olaraq həyata keçiriləcək, bu Azərbaycan dövlətinin sosial mahiyyətindən irəli hələn bir siyasətdir.

**Nailə Məhərrəmova**

# Ukraynalı teleaparıcı: "Son 10 ildə Azərbaycanda olmayanlar indi onu görsələr tanımazlar"



Ukraynanın "Kontinent" öyrədici-turizm teleproqramının (5-ci kanal) yaradıcı qrupu Azərbaycandan qayıdıb. Ukraynalı televiziyaçılar Bakıda, Naxçıvanda, Şəkidə, Naftalan və Duzdağ kurortlarında, "Savalan" şərab zavodunda olublar.

Son 10 ildə Azərbaycanda olmayanlar indi onu görsələr tanımazlar. "Kontinent" telelayihəsinin rəhbəri, teleaparıcı Nadia Baziv bu fikri AZƏRTAC-a müsahibəsində söyləyib. N. Baziv vurğulayıb ki, möhtəşəm yeni binalar, tərtəmiz küçələr, insanların üzündəki təbəssüm, hər cür şəraiti olan kurortlar, bənzərsiz gözəlliyi ilə seçilən Şəki Xan Sarayı - bütün bunlar insanı heyran edir.

Teleaparıcı Nadia Baziv vurğulayıb: "Biz Şəki halvası hazırlamağı öyrəndik. Ömrümüzdə ilk dəfə qarpız, qoz və içərisinə badam qoyulmuş zeytun mürəbbəsinin dadına baxdıq. Bu mürəbbələrlə ətirli Azərbaycan çayı içdik. Azərbaycan milli musiqi alətlərini maraqla dinlədik, onların melodiyalarının insanda oyatdığı duyğuları və eyni zamanda Odlar Diyarının xüsusiyyətlərini hiss etdik. Bizdə belə təəssürat yarandı ki, Azərbaycanda hər şey var - ucsuz-bucaqsız çəmənlər, uca dağlar, dəniz, dünyadakı 11 iqlim qurşağının 9-u, dəbdəbəli kurortlar... Üçrəngli neft, suyu çəhrayı rəngdə olan göl yalnız Azərbaycandadır. Qadınlar üçün "kəlağayı" adlanan milli ipək baş örtüyü yalnız burada hazırlanır. Yalnız burada indicə tanış olduğunuz adamlar sizi qonaq çağırır və elə qəbul edirlər ki, sanki ömür boyu sizi gözləyiblər. Biz bu gözəl diyarı görmək və onun haqqında ukraynalı televiziya tamaşaçılarına danışmaq üçün yaradılan imkana görə Azərbaycanın Ukraynadakı səfirliyinə minnətdarıq".

# Azərbaycan - Ermənistan dövlət sərhədində növbəti monitorinq keçiriləcək



ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, aprelin 17-də Azərbaycan və Ermənistan dövlət sərhədinin Qazax rayonu istiqamətində növbəti monitorinqin keçirilməsi planlaşdırılır. Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Martin Şuster keçirəcəklər.

Ermənistan tərəfindən isə monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Mixail Olaru və Oqnyen Joviç aparacaqlar.

# Gürcüstandan Azərbaycana külli miqdarda siqaretin keçirilməsi cəhdinin qarşısı alınıb




Gürcüstandan Azərbaycana külli miqdarda siqaretin gətirilməsi cəhdinin qarşısı alınıb. Dövlət Gömrük Komitəsinin mətbuat və ictimaiyyətlə əlaqələr idarəsindən AZƏRTAC-a bildirilib ki, Qərb Ərazi Baş Gömrük İdarəsinin Əməliyyat və Təhqiqat İdarəsinin Əməliyyat şöbəsinə daxil olan məlumat əsasında idarənin "Qırmızı Körpü" gömrük postunda Gürcüstandan gələn Azərbaycan vətəndaşının idarə etdiyi "VAZ 21074" markalı avtomobil saxlanılıb və sürücü şifahi sorğu-sual edilib. Sorğu-sual zamanı vətəndaş idarə etdiyi nəqliyyat vasitəsində gizlədilən və gömrük nəzarətinə mütləq bəyan edilməli hər hansı predmetin olmadığını bildirib. Bundan sonra avtomobilə baxış keçirilib. Yoxlama zamanı avtomobilin salonunda və yük yerində gizlədilən 3 min ədəd "King" markalı siqaret aşkar olunub. Faktla bağlı araşdırma aparılır.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

17 aprel 2019-cu il

# Azərbaycan iqtisadiyyatı sürətli artım mərhələsinə qədəm qoyub

## *Milli Məclisin deputatı Tahir Mirkişilinin yap.org.az-a müsahibəsi*

***- Tahir müəllim, məlum olduğu kimi Prezident İlham Əliyev son vaxtlar bir çox sahələrdə islahatlar həyata keçirib və hazırda da bu proses davam etdirilir. Bununla bağlı fikirlərinizi bildirməyi xahis edirik...***

-Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar öz sürəti, əhatəsi və nəticəliliyi ilə fərqlənir. Ümumilikdə islahatlar prosesi ağrılı bir prosesdir. İslahatların uğurlu olması onun qətiyyətli və düşünülmüş aparılmasından və xalq tərəfindən dəstəklənməsindən çox asılıdır. Keçən müddət ərzində dövlət başçısının bütün addımlarının qətiyyətli və uzaqgörən olmasına bütün dünya şahidi olmuşdur. Cənab Prezidentin müəllifi olduğu həm daxili, həm də beynəlxalq layihələr daim uğurla başa çatmışdır. 11 aprel 2018-ci il prezident seçkilərində cənab İlham Əliyevin xalqın böyük səs çoxluğu ilə prezident seçilməsi Azərbaycan xalqının məhz Onu dəstəklədiyini deməkdir. Bir neçə gün öncə Fransanın "Opinion way" şirkətin apardığı sorğu nəticəsində rəyi soruşulan Azərbaycan vətəndaşlarının 90%-nin Prezidentin islahatlarını dəstəkləməsi ölkədə aparılan mühüm iqtisadi və idarəetmə islahatlarına böyük dəstəkdir. Keçən 1 ildə islahatların mühüm nəticələri onu bir daha göstərdi ki, effektiv şəkildə aparılan islahatlar qısa müddətdə öz nəticələrini verir. 2019-cu ilin ilk 3 ayının nəticələrini təhlil etsək, görərik ki, Ümumi Daxili Məhsul 3%, qeyri-neft sənayesi 15% artmış, inflyasiya cəmi 2% olmuşdur. 2018-ci ildə Dünya Bankı Azərbaycanı dünyada ən çox islahat aparan ölkə elan etmişdir. İslahatlar nəticəsində iqtisadiyyatda şəffaflığın artması büdcə gəlirlərini son 2 ayda 200 milyon manat artırmışdır. Dövlətin artan gəlirlərini vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə yönəldən dövlət başçısı minimum əmək haqlarını, pensiyaları, sosial müavinətləri, tələbə təqaüdləri və s. artırmaqla bir daha aparılan islahatların əsas məqsədinin Azərbaycan vətəndaşının daha yaxşı yaşaması olduğunu göstərmişdir.

***-Problemli kreditlər iqtisadi inkişafın qarşısında mühüm bir manea kimi dayanmışdı və nəhayət vətəndaşlar tərəfindən gözlənilən fərman imzalandı. Bununla bağlı nə deyə bilərsiniz?***

-Ümumilikdə iqtisadiyyatda və bank sektorunda həmişə problemli kreditlər məsələsi var və bunun qəbul edilmiş bir həddi mövcuddur. Bu hədd bəzi ölkələrdə 5 faizədəkdir, bəzi ölkələrdə isə 3 faizdir. Azərbaycanda devalvasiyadan əvvəl problemli kreditlərin ümumi kredit portfelində həcmi, təxminən 5,5-6 faiz həcmində olub. Bu da dünyada qəbul edilən bir normadır. Ümumiyyətlə, belə hesab olunur ki, riskləri nəzərə almaqla, bank sektoru özü bu həddə olan problemli kreditləri sağlamlaşdıra bilir və hətta bu formada riskləri idarə etməyi bacarır.

2015-ci ildə Azərbaycanda iki dəfə devalvasiya olub. Bu devalvasiyalardan sonra ölkədə iki mühüm məsələ ortaya çıxıb. Həm xarici valyutada, həm də ümumilikdə manatla götürülən kreditlərin geri qaytarılması ilə bağlı vətəndaşlarda müəyyən çətinlik yaranıb. Ötən dövrdə bu iki istiqamətdə iş aparılıb. Cənab Prezident çıxışlarında hər zaman bank sektoruna ödənilməsində problem olan kreditlərin restrukturizasiyası ilə bağlı çağırışlar edib ki, banklar həm müddətin uzadılması, həm də kredit faizlərinin aşağı salınması ilə bağlı vətəndaşlarla qarşılıqlı razılaşma əldə etsinlər. Bu istiqamətdə bir sıra banklar müəyyən işlər görüb.

Digər bir tərəfdən isə, dövlət tərəfindən Strateji Yol xəritələri qəbul edilib, sürətli iqtisadi islahatlar həyata keçirilməyə başlayıb. Yəni devalvasiyanı törədən mənbələrin aradan qaldırılması ilə bağlı çox ciddi işlər görülüb. Azərbaycan hökuməti tamamilə doğru olaraq ilk növbədə bu səbəbləri aradan qaldırmaq üçün tədbirlər görüb və bu, başa çatıb. Artıq 2017-ci ildə Azərbaycan iqtisadiyyatı sabitləşib və 2018-ci ildə ümumi daxili məhsul artım mərhələrinə keçib. 2019-cu ilin ilk 2 ayı göstərdi ki, Azərbaycan iqtisadiyyatı sürətli artım mərhələsinə qədəm qoyub, şəfaflıq, büdcə gəlirləri, vergi sistemində yığılmalar artıb. Bu yığılmalar imkan verdi ki, əvvəllər yaranan çətinliklərin nəticələrinin aradan qaldırılması ilə bağlı addımlar atılsın və ölkə Prezidenti də bununla bağlı Fərman imzaladı.

Ümumilikdə məsələ ilə bağlı parlamentdə də müzakirələr aparılıb, deputatlar tərəfindən bu problemin həlli ilə bağlı dövlətin müəyyən dərəcədə yardım göstərməsi ilə bağlı çağırışlar olub. Amma məhz ölkə Prezidenti tərəfindən verilmiş bu Fərman miqyasına və mexanizmlərinə görə tarixi bir addımdır.

2015-ci ilin fevral devalvasiyasına qədər xarici valyutada kredit götürənlərin strukturuna baxsaq, 10 min dollaradək kredit götürən vətəndaşlar bütövlükdə xarici valyutada kredit götürmüş vətəndaşların 92 faizini təşkil edir. Bu, o deməkdir ki, kompensasiyanın verilməsi bütövlükdə xarici valyutada kredit götürmüş vətəndaşların 92 faizinə kömək etdi. 17 min manata qədər vaxtı keçmiş kredit borcu olan vətəndaşlar milli valyutada vaxtı keçmiş kredit borcları olan vətəndaşların ümumi sayının 99 faizini təşkil edir. Bu addım bütövlükdə banklarla münasibətdə olan vətəndaşların orta hesabla, təxminən, 95 faizini əhatə edir. Bu, kifayət qədər böyük həcmdir. Dövlət bu addımı atmaqla vətəndaşları bu yükdən azad etdi və bu yükü öz üzərinə götürdü. Artıq vətəndaşlar kreditin ödənilməsi ilə bağlı yeni şərtlərlə müqavilə bağlamalı olacaqlar. Növbəti 5 il ərzində kredit müqavilələri, təxminən ildə 1 faiz şərti ilə bağlanacaq.Ümumilikdə fərman 850 minə yaxın vətəndaşa kömək etməyi nəzərdə tutur.



Digər tərəfdən, bankların sağlamlaşdırılması baxımından dövlətin atdığı addım çox böyük əhəmiyyət kəsb edir. Çünki bank iqtisadiyyatın "şah damarı"dır. Banklarda olan istənilən bir problem sonra bütövlükdə iqtisadiyyata yayılır və bütün sektora təsir edir. Ona görə də bank sektorunun sağlamlaşdırılması bütövlükdə iqtisadiyyat üçün çox vacibdir. Bu addım həm iqtisadiyyatın sağlamlaşdırılması, həm iqtisadiyyatda bank sektorunun effektiv və fəal iştirakının artırılması, həm də vətəndaşın sosial müdafiəsinin qorunması baxımından çox mühümdür.

***-Bəzi ekspertlərin fikrincə, Azərbaycan iqtisadiyyatı əlavə dəyər vergisindən (ƏDV) tədricən xilas olmalıdır və bu vergi digər vergilərlə əvəz edilməlidir. ƏDV-dən imtina etmək mümkündürmü?***

-ƏDV ilk dəfə 1950-ci illərdə Fransada tətbiq olunmağa başlayıb. Bu gün Avropa İttifaqına üzv olmaq üçün istənilən halda hər bir ölkə ƏDV-ni tətbiq etmək mexanizminə sahib olmalıdır və bu, məcburidir. Bir çox dövlətlərin, məsələn, Fransanın dövlət büdcəsinin vergi gəlirlərində ƏDV-nin payı 45 faizə yaxındır. Bəzi ölkələrdə isə bu rəqəm azdır. Məsələn, Niderlandda bu göstərici 25 faizə yaxındır. Amma bütövlükdə ƏDV bu gün büdcənin gəlirlərinin təmin olunmasında əhəmiyyətli rol oynayır.

Azərbaycanda ƏDV vergi yığımlarının, təxminən 50 faizindən bir az çoxdur. Yəni bu gün həm gömrük, həm vergi sahəsində ƏDV-nin yığım həcminə fikir versək, bu, bütövlükdə büdcə gəlirlərinin, təxminən 30 faizinə yaxındır. Bu, kifayət qədər böyük məbləğdir. Bu gün ƏDV bir tərəfdən iqtisadi funksiyaya sahibdirsə, digər tərəfdən onun mühüm bir sosial istiqaməti var. ƏDV olmayanda, bu qədər vergi yığılmayanda son nəticədə əhalinin sosial qayğı ilə əhatə olunmasında ciddi şəkildə problemlər yarana bilər. Yığılan vergilərin böyük hissəsi son nəticədə pensiyaya, sosial təminata, sosial müavinətə və bütövlükdə əhalinin maddi rifahının artırılmasına yönəlir. Yəni verginin əsas funksiyalarından da biri bundan ibarətdir.

Amma mən düşünürəm ki, istənilən halda ƏDV mexanizminin təkmilləşdirilməsi ilə bağlı işlər görmək mümkündür. Bu gün dünyada ƏDV-nin tətbiqi mexanizmi ilə bağlı diskussiyalar aparılır. Bir çox ölkələrdə ƏDV tətbiq olunmur. Məsələn, ABŞ, Kanada, Avstraliyada ƏDV yoxdur və bunun əvəzində başqa tipli vergilər var. Milli Məclisdə müzakirələr zamanı bir çox hallarda ƏDV-nin müxtəlif dərəcələrinin tətbiqi ilə bağlı təkliflər də verməişdik. Biz də düşünürdük ki, bəzi sahələrdə, məsələn, tibb, təhsil, əhalinin ilkin ehtiyaclarının tələb olunduğu müəyyən sahələrdə ƏDV-nin dərəcəsinin aşağı salınması mümkündür.

Azərbaycanda bir çox məhsullar ƏDV-dən azad olunub. Məsələn, buğda və taxıl məhsulları idxalda ƏDV-dən azaddır. Bir çox hallarda bu azadolmalar əhalinin ilkin ehtiyacını ödəyən məhsulların qiymətinin aşağı olmasına səbəb olub. Amma təhlillər göstərir ki, ƏDV-nin dərəcələrində müxtəliflik tətbiq edən zaman iqtisadi cinayətlərin sayının səviyyəsi getdikcə artır. Çünki ƏDV elə bir vergidir ki, burada istənilən halda mexanizmin təkmil olması çox mühümdür. Mexanizm təkmil olmasa, yəni uçot düzgün qurulmasa, bu zaman ƏDV-nin toplanmasında kifayət qədər boşluqlar mövcud olur. Bu boşluqlarda inzibatçılığın səviyyəsinin aşağı olması bir çox hallarda bu verginin ödənilməməsinə, vergidən qaçmaya səbəb olur.

Digər bir yanaşma ƏDV-də müxtəlif dərəcələrin tətbiqi yox, bunun bütövlükdə aşağı salınması, amma azadolmaların aradan qaldırılmasından ibarətdir. Çünki burada əsas məqsəd inzibatçılığın daha şəffaf qurulmasıdır. Şəffaflığın artması son nəticədə ƏDV-nin bir çox məsələlər üzrə dərəcələrinin aşağı enməsinə səbəb ola biləcək. Bunun üçün əslində sistem hazır olmalıdır və sistemin hazır olması üçün şəffaflıq artmalıdır. Ölkəmizdə uçotluğun səviyyəsinin daha çox artması son nəticədə ƏDV sistemində islahatlar aparmağa şərait yaradacaq.

***- Tahir müəllim, "Diqlas" Ticarət Mərkəzindəki məlum yanğından sonra cənab Prezidentin sədrliyi ilə müşavirə keçirildi. Müşavirədə dövlət başçısı sığorta sahəsində boşluqların olduğunu bildirdi. Sizcə, bu boşluğu necə və hansı hallarda aradan qaldırmaq mümkün ola bilər?***

-Azərbaycanda "İcbari sığortalar haqqında" qanun var. Bu qanunun müddəalarına görə, hər bir fiziki və hüquqi şəxs öz əmlakını məcburi şəkildə sığorta etdirməlidir. Yəni bu, könüllü deyil, icbaridir. Eyni zamanda, qanunda ikinci müddəa var ki, üçüncü şəxslərə dəyən zərərlə bağlı istənilən halda fiziki və yaxud hüquqi şəxslər öz əmlakını 50 min manat risk həddində sığorta etdirməlidirlər. Biz buna mülki məsuliyyət deyirik. Burada müəyyən məhdudiyyətlər olsa da, amma bütövlükdə bu tipli hadisələrin qarşısını almaq üçün qanunda müvafiq müddəalar mövcud idi.

Problem ondan ibarətdir ki, Azərbaycanda sığorta sahəsində əmlakın və yaxud da daşınmaz əmlakın sığortalanması ilə bağlı müəyyən dərəcədə boşluqlar mövcuddur. Bunun da bir çox səbəbi var. Səbəblərdən biri əhalinin və yaxud da sahibkarların bəzilərinin iqtisadi savadlılığının arzuolunan səviyyədə olmamasıdır. Bir çox hallarda isə baş verən hadisə zamanı sığorta məbləğinin alınması ilə bağlı bir çox şikayətlərin olması, əhali ilə sığorta şirkətləri arasında inamın arzuolunan səviyyədə olmaması Azərbaycanda sığorta mədəniyyətinin formalaşmasına zərər göstərib.

Amma bu, o demək deyil ki, Azərbaycanda əmlak və yaxud daşınmaz əmlak sığorta olunmur. Mən bir fakt deyim. 2018-ci ildə Azərbaycanda könüllü şəkildə daşınar və daşınmaz əmlakın sığorta etdirildiyi riskin həcmi 32 milyard manat olub. Yəni sığorta şirkətləri yalnız 2018-ci ildə könüllü olaraq sahibkar və vətəndaşlardan 57 milyon manat həcmində sığorta haqqı toplayıb. Bu da müəyyən bir sayda vətəndaş və yaxud sahibkarın sığorta mexanizmlərindən istifadə etdiyini deməyə əsas verir. Amma istənilən halda bu, arzuolunan hədd deyil.

Bizim də istəyimiz odur ki, özəl sektorda vətəndaşların və sahibkarların əmlakının sığortası lazımi səviyyədə olsun. Çünki baş verən son hadisələrdə biz bunun şahidi olduq. Bu gün bazar iqtisadiyyatının mühüm elementlərindən biri sığortadır. Sığorta şirkətləri çox da böyük olmayan məbləğ həddində vətəndaşa dəyə biləcək ziyanı tam ödəmək kimi mexanizmlərə sahibdir. Mən sizə bir fakt deyim, bu gün hər hansı sahibkar mağazada 30 min manat dəyərində olan malını sığortalamaq istəsə, bunun illik dəyəri təxminən 90 manat həcmindədir. Bu, əslində çox kiçik bir məbləğdir.

Təsəvvür edin ki, bu gün sahibkar hər ay 200-300 manat icarə haqqı ödəməyə hazırdır, amma ay ərzində təxminən 7,5 manat ödəməklə bütövlükdə daşınar əmlakını sığorta etdirmək mexanizmindən istifadə etmir. Bu, o deməkdir ki, burada söhbət məbləğdən getmir, çünki məbləğ kifayət qədər kiçikdir. Burada əsas məsələ odur ki, sahibkar-sığorta münasibətlərində yeni mexanizmlərin tətbiqini zəruri edən qaydalara ehtiyac var. Düşünürəm ki, bu qaydalar sahibkarlar ilə sığorta şirkətləri arasındakı münasibətlərdə etibar yaradacaq, eyni zamanda sahibkarlarda sığorta mədəniyyətinin səviyyəsini daha da yüksəldəcək.

Cənab Prezidentin keçirdiyi müşavirədə verdiyi tapşırıqlar Azərbaycanda sosial dövlətin funksiyasının və dövlət başçısının humanizm siyasətinin bariz nümunəsi idi. Baxmayaraq ki, "Diqlas" ticarət mərkəzində baş verən hadisədə dövlət heç bir məsuliyyət daşımırdı. Ölkə Prezidentinin zərər çəkmiş sahibkarlara dövlət yardımının edilməsi ilə bağlı verdiyi tapşırıq çox mühüm əhəmiyyət kəsb edir. Düşünürəm ki, böyük itkilərlə üzləşən sahibkarların ilkin mərhələdə bu vəziyyətdən çıxması yolunda önəmli bir addım idi.

***- Bankların verdikləri kreditlərin faizləri yüksəkdir. Bunu tənzimləmək mümkündürmü və faizləri aşağı salmaq olarmı?***

-Bu gün Azərbaycanda kredit faizlərinin, xüsusən sahibkarlıq üçün kredit faizlərinin yuxarı olması sahibkarlığın inkişafı üçün müəyyən qədər maneələr yaradır. Kredit faizləri nə qədər aşağı olarsa, sahibkarlıq daha çox investisiya cəlb edə bilər və yaxud daha çox iş görə bilər. Bu gün bütövlükdə kredit portfelinin ümumi daxili məhsulda həcmi, təxminən 12 faizə yaxındır. İqtisadiyyatın sürətli inkişaf etməsi üçün kredit portfelinin ümumi daxili məhsulda payı 60 faizdən yuxarı olmalıdır. Bu, o deməkdir ki, Azərbaycanda kredit portfelinin həcmi xeyli aşağıdır. İqtisadiyyatın sürətli inkişafı üçün kreditlərə ehtiyac var, bu kreditlərin həcmi artmalıdır. Amma istənilən halda kredit faizləri də sahibkarlara daha çox iş görməyə imkan verməlidir.

Bu gün Avropa ölkələrində kredit faizləri bir neçə faizdirsə, bizdə bir çox hallarda 15 faizin üzərindədir. Böyük həcmdə fərqin olması bizim sahibkarların rəqabət qabiliyyətini aşağı salır. Azərbaycan sahibkarları ixrac zamanı bazarlarda Avropa şirkətləri ilə üzləşir. Sahibkarlarımızın ucuz pul kütləsinə asan çıxışının olmaması rəqabətdə ciddi problemlər yarada bilir.

Amma məsələnin ikinci tərəfi var ki, hansı formada kredit faizlərini aşağı salmaq mümkündür. Çünki banklar özəldir və onlar da sahibkarlığın bir formasıdır. Bu gün bankların hər hansı bir formada kredit faizlərini aşağı salması iki istiqamətdə mümkündür. Bir istiqamət ondan ibarətdir ki, istənilən halda bankların daha çox ucuz pul kütləsinə çıxışı olmalıdır. Bu gün bankların kredit cəlb etməsində iki mühüm mənbə var. Birincisi, əhalinin əmanətləridir, ikincisi isə bankların beynəlxalq bazardan cəlb etdiyi pul kütləsidir. Kredit faizlərinin yuxarı olmasının bir səbəbi də əhalinin qəbul olunan əmanətlərin faizlərinin yuxarı olmasıdır. Belə çıxır ki, biz kredit faizlərini aşağı salmağa çalışsaq, istənilən halda əhalinin əmanət faizləri də aşağı düşməlidir. Bu, bir tərəfdən əhalinin gəlirlərinə təsir edəcək.

Amma digər tərəfdən bunu iqtisadi üsullarla da var. Bir çox ölkələrdə müəyyən dərəcədə məhdudiyyətlər tətbiq edirlər ki, banklara yuxarı faizli kredit verilməsi iqtisadi cəhətdən sərf etməsin. Məsələn, əgər banklar yuxarı faizli kredit verilirsə, bu kreditlərin qaytarılması üçün banklar daha çox özlərində ehtiyat yaratmalıdır. Bankın daha çox ehtiyat yaratması bir çox hallarda ona sərf etmir. Ona görə də bank daha az ehtiyat yaratmaq üçün aşağı faizlə kredit verməkdə maraqlı olur. Bu, məsələnin mühüm bir hissəsidir.

Biz də düşünürük ki, bu gün ölkəmizdə iqtisadi alətlərlə banklara kredit faizlərinin aşağı salınması ilə bağlı təsir etmək mümkündür. Amma eyni zamanda, daha ucuz kreditə və yaxud da pul kütləsinə çıxışı təmin etmək üçün banklara köməklik göstərmək lazımdır. Son nəticədə kredit faizlərinin aşağı düşməsində hamımız maraqlıyıq. Çünki kredit faizlərinin yuxarı həddə olması sahibkarlıq fəaliyyətinin inkişafı üçün maneədir.

***- Uzun müddətdir ki, ölkədə dolların qiymətində hər hansı bir dəyişiklik olmayıb. Necə hesab edirsiniz, qarşıdakı aylarda dolların bahalaşması gözlənilirmi?***

-Azərbaycan iqtisadiyyatı sürətli artım mərhələsinə qədəm qoyub. 2018-ci ilin iqtisadi nəticələrinə görə ixrac idxalı 8.6milyard dollar üstələyib, tədiyyə balansının cari əməliyyatlar balansında müsbət saldo 5 milyard dollardan çox olub. İxracın həcmi durmadan artır və yerli istehsal həcmi genişlənir. Eyni zamanda, ölkədə pul kütləsinə effektiv nəzarət mexanizmləri qurulub və yeni büdcə qaydaları qəbul olunub. Belə bir şəraitdə Azərbaycanın manatının mövqeyi digər valyutalara nisbətdə kifayət qədər sabitdir və bunun üşün yetərli iqtisadi səbəblər vardır. İndiki şəraitdə yaxın dövrlərdə manata iqtisadi cəhətdən təsir edə biləcək ciddi təhlükələr mövcud deyildir.

# Ömrünü ədəbi-nəzəri fikrin inkişafına həsr edən alim

## *Dövlət başçısının Sərəncamı ilə akademik Məmməd Cəfər Cəfərovun anadan olmasının 110 illiyi qeyd olunacaq*



***XX əsr Azərbaycan estetik fikir və ədəbi tənqidinin görkəmli nümayəndəsi, Dövlət mükafatı laureatı, əməkdar elm xadimi, akademik Məmməd Cəfər Cəfərov bütün ömrünü Azərbaycan ədəbiyyatşünaslıq elminin aktual problemlərinin tədqiqinə həsr edib. 83 illik ömrünün 60 ilini ölkəmizdə ədəbi-nəzəri fikrin inkişafına həsr edən alimi Azərbaycan-rus ədəbi əlaqələri, Azərbaycan, rus və Avropa klassik ədəbi irsi, dərsliklər, ədəbiyyat tarixləri və ali məktəblər üçün mühazirələri onu tənqidçi, ədəbiyyatşünas-alim, pedaqoq kimi səciyyələndirir.***

Bu ilin may ayında görkəmli ədəbiyyatşünas və tənqidçi, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycanın Dövlət mükafatı laureatı, əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Məmməd Cəfər Cəfərovun anadan olmasının 110 illiyi tamam olur. Onun 110 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, akademik Məmməd Cəfər Cəfərov ömrünün 60 ilə yaxın bir dövrünü ölkədə ədəbi-nəzəri fikrin inkişafına həsr etmiş, ədəbiyyatın tarixi və nəzəriyyəsi, ədəbi əlaqələr və eləcə də, estetikanın aktual məsələlərinə dair fundamental araşdırmaları ilə Azərbaycan ədəbiyyatşünaslığını əhəmiyyətli dərəcədə zənginləşdirmişdir. Sərəncama əsasən, alimin anadan olmasının 110-cu ildönümünün qeyd olunmasını təmin etmək məqsədi ilə Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə tədbirlər planını hazırlayıb, həyata keçirəcək.

1909-cu il mayın 9-da Azərbaycanın Naxçıvan şəhərində anadan olan Məmməd Cəfər Cəfərov ilk təhsilini doğulduğu torpaqda aldıqdan sonra Naxçıvan Pedaqoji Texnikumuna daxil olmuşdur. Daha sonra Azərbaycan Pedoqoji İnstitutunun (indiki ADU-nun) dil və ədəbiyyat fakültəsində təhsilini davam etdirmişdir. O, Bakı İkiillik Müəllimlər İnstitutunda baş müəllim, "Ədəbiyyat qəzeti" redaksiyasında şöbə müdiri, Quba Müəllimlər İnstitutunda elmi işlər üzrə direktor müavini, ADU-nun (indiki BDU-nun) rus ədəbiyyatı kafedrasında dosent, eyni zamanda, "Ədəbiyyat qəzeti"nin redaktoru, ADU-nun filologiya fakültəsinin dekanı, Azərbaycan EA Nizami adına Dil və Ədəbiyyat İnstitutunda baş elmi işçi, ADU-nun rus ədəbiyyatı kafedrasının müdiri, Azərbaycan EA Nizami adına Dil və Ədəbiyyat İnstitutunda Sovet ədəbiyyatı şöbəsinin, ədəbiyyat nəzəriyyəsi şöbəsinin müdiri və institutun direktoru olmuşdur. Akademikin elmi fəaliyyətinin 40 illik bir dövrü Azərbaycan Milli Elmlər Akademiyası ilə bağlı olub. Nizami adına Ədəbiyyat İnstitutunun Ədəbiyyat nəzəriyyəsi şöbəsinə təxminən iyirmi il rəhbərlik etmiş Məmməd Cəfər Cəfərov həm də bu şöbənin yaradıcısı və ilk müdiri olub.

M.C.Cəfərov Azərbaycan yazıçılarının yaradıcılığı haqqında ədəbi-tənqidi məqalələrin, Azərbaycan ədəbiyyatının tarixi və nəzəriyyəsinə həsr olunmuş əsərlərin, aktual ədəbi-estetik və pedaqoji problemlərə aid kitabların müəllifidir.

Məmməd Cəfər Cəfərov filologiya elmləri doktoru, professor, akademik, Azərbaycanın əməkdar elm xadimi kimi fəxri ad və titullara sahib olub. O, otuzdan artıq monoqrafiya, dərslik və kitab, 300-dən çox elmi məqalənin müəllifidir. Ədəbiyyatşünaslığı elmimizin bir sıra tədqiqat istiqamətləri, məhz akademik Məmməd Cəfər Cəfərovun adı ilə bağlıdır. O, rus ədəbiyyatının görkəmli bilicisi və tədqiqatçısı idi. Onun "Rus ədəbiyyatı tarixi oçerkləri", "Rus klassikləri", üçcildlik "XIX əsr rus ədəbiyyatı tarixi" kitabları istər yazıldığı, istərsə də, hazırkı dövrdə Azərbaycanda rus ədəbiyyatı ilə bağlı qələmə alınmış ən sanballı elmi əsərlər sayılır.

Onun geniş əhatəli elmi irsində Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir və Səməd Vurğun kimi qüdrətli söz ustalarının yaradıcılıqlarının fəlsəfi-estetik mahiyyətini dünya ədəbi təcrübəsi ilə vəhdətdə dolğun şərh edən, yüksək elmi-nəzəri ümumiləşdirmə gücünə malik əsərləri xüsusi yer tutur.

Azərbaycan romantizmi ilə bağlı ilk ən mükəmməl tədqiqatlar də onun adı ilə bağlıdır. Görkəmli alimin "Hüseyn Cavid", "Azərbaycan romantizmi" əsərləri Azərbaycan romantizminin, bir ədəbi cərəyan olaraq, tədqiqində yeni mərhələ idi. Onun Azərbaycan romantizmi ilə bağlı irəli sürdüyü elmi fikirlər romantizm ilə əlaqədar aparılan elmi-tədqiqat işlərinin əsas mövzularını təşkil etmişdir. Alim, eyni zamanda, estetika nəzəriyyəçisi və sənətşünas filosof idi. Qələmə aldığı "Estetik zövq haqqında", "Mütəfəkkirin şəxsiyyəti", "Həyatın romantikası", "Nizaminin fikir dünyası" əsərləri Azərbaycan estetik və fəlsəfi fikrinin ən gözəl nümunələrindən sayılır. Akademik ədəbi prosesin 60 illik bir dövrünün (1932-1992) dərin bilicisi, professional tənqidçisi olub. Onun "Ədəbi düşüncələr" və "Sənət yollarında" kitabları ədəbi tənqid tariximizdə öz elmi sanbalını bu gün də saxlamaqdadır.

Ədəbiyyat tariximizin öyrənilməsində də akademikin əvəzedilməz xidmətləri var. Xüsusən, Məhəmməd Füzuli poeziyasının poetik təhlili və fəlsəfi dərkində Məmməd Cəfərin müstəsna xidmətləri vardır. Görkəmli alimin "Füzuli düşünür" kitabı yarım əsrdən çoxdur ki, ali məktəblərdə öyrənilməkdədir.

Görkəmli ədəbiyyatşünas-alim 1992-ci il mayın 11-də Bakıda vəfat edib və Fəxri Xiyabanda dəfn olunub. Məmməd Cəfəri tanıyanlar bu gün də onu qayğıkeş, səmimi, məsuliyyətli və tələbkar bir insan kimi xatırlayırlar.

**Zümrüd BAYRAMOVA**

# Sosial müavinət və təqaüdlərin illik vəsaiti 2 dəfə artırılacaq

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 15 aprel 2019-cu il tarixdə imzaladığı Sərəncam və Fərmanları bir sıra kateqoriyalardan olan vətəndaşlara sosial müavinətlərin və Prezident təqaüdlərinin aprelin 1-dən orta hesabla 100 faiz artırılmasını, yeni təqaüd növlərinin təsis olunmasını təmin edir. Bu sənədlər dövlət başçısının uğurlu sosial islahatlar paketinin növbəti nailiyyəti olmaqla, əhalinin, xüsusilə həssas qruplardan olan vətəndaşların rifah halının yaxşılaşdırılmasında əhəmiyyətli addımın atılması deməkdir.***



Belə ki, "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 avqust tarixli 973 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 15 aprel 2019-cu il tarixli Fərmana əsasən aprelin 1-dən əlillik "ümumi xəstəlik", "hərbi xidmət dövründə xəstələnmə", "əmək zədəsi və peşə xəstəliyi", "hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar", "Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar", "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar" və "1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar", "Çernobıl AES-də hərbi xidmətlə əlaqədar" və ya "hərbi xidmət vəzifələrini yerinə yetirməklə əlaqədar" səbəbindən baş verdikdə aylıq müavinətin məbləği I dərəcə əlilliyi olan şəxslər üçün 150 manata, II dərəcə əlilliyi olan şəxslər üçün 130 manata, III dərəcə əlilliyi olan şəxslər üçün 110 manata, uşağın anadan olmasına görə birdəfəlik müavinət isə 200 manata çatdırılır.

Aylıq müavinətin məbləği yaşa görə müavinət alanlar üçün 130 manat, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar üçün 150 manat, ailə başçısını itirməyə görə 80 manat (hər nəfər üçün), müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının uşaqları üçün 100 manat (hər uşaq üçün), valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumları üçün (himayəçilərinə) müavinət 100 manat, dəfn üçün birdəfəlik müavinət 300 manat müəyyən olunub. Fərmanda 2013-cü il 29 avqust tarixli 973 nömrəli Fərmanın müvafiq yarımbəndindəki "müharibə əlillərinin, 20 Yanvar hadisələri zamanı əlil olanların, Çernobıl qəzası nəticəsində I və II qrup əlil olmuş" sözlərinin "müharibə ilə və ya 1990-cı ilin 20 yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərin, Çernobıl qəzası nəticəsində I və II dərəcə əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilməsi tapşırılır.

İmzalanan digər bir Fərmanla isə beşdən çox uşağı olan qadınlara sosial müavinətin məbləği 55 manata (hər uşaq üçün) çatdırılır.

15 aprel 2019-cu il tarixdə imzalanan daha bir Fərmanla "Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" 2008-ci il 9 sentyabr tarixli 823 nömrəli Fərmanda "Müharibə əlillərinə" sözlərinin "Müharibə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə" sözləri, "əlil olan" sözlərinin "əlilliyi müəyyən olunmuş" sözləri ilə əvəz edilməsi tapşırılır. Həmçinin qeyd olunan 2008-ci il 9 sentyabr tarixli 823 nömrəli Fərmanın aid olduğu şəxslərin (Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə, cəbhədə olmaqla və ya döyüş əməliyyatları aparılan ölkələrdə beynəlmiləl borcu yerinə yetirməklə bağlı, həmçinin hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirərkən sağlamlıqlarını itirərək əlilliyi müəyyən edilmiş şəxslərin) sırasına 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər də daxil edilir. Beləliklə, Prezidentin aylıq təqaüdü Fərmanın əhatə etdiyi kateqoriyalardan olan I dərəcə əlilliyi olan şəxslərə 250 manat, II dərəcə əlilliyi olan şəxslərə - 230 manat, III dərəcə əlilliyi olan şəxslərə - 210 manat müəyyən olunur.

Dövlət başçısının imzaladığı digər bir Fərman isə ümumi xəstəlik, hərbi xidmət dövründə xəstələnmə ilə, əmək zədəsi və peşə xəstəliyi ilə, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə bağlı səbəblərdən I qrup əlilliyi olan şəxslərə (əlilliyə görə aylıq sosial müavinət və ya əmək pensiyası almasından asılı olmayaraq) Prezidentin aylıq təqaüdü kimi 100 manat təqaüdün verilməsini nəzərdə tutur. Beləliklə, bu Fərman bir tərəfdən həmin kateqoriyalardan olan I qrup əlilliyi olan şəxslərə Prezidentin aylıq təqaüdünün artırılaraq 100 manata çatdırılmasını, digər tərəfdən, həmin təqaüdün əmək pensiyası alan I qrup əlilliyi olan şəxslərə də ödənilməsini (bu vaxta qədər yalnız aylıq sosial müavinət alan I qrup əlilliyi olan şəxslərə ödənilirdi) təmin edir.

Prezident cənab İlham Əliyevin 15 aprel 2019-cu il tarixli digər Fərmanında isə I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilməsi və onun aylıq məbləği 50 manat müəyyən olunması nəzərdə tutulur. Bu Fərmanda həmin təqaüdün 2019-cu il aprelin 1-dək I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara münasibətdə "Əmək pensiyaları haqqında" Qanunda nəzərdə tutulmuş qulluq üçün əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə və təqaüdü almaq hüququ olan şəxslərdən yalnız birinə ödənildiyi qeyd olunur.

"Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" 15 aprel 2019-cu il tarixli Fərmanda isə müharibə veteranlarına Prezidentin aylıq 80 manat məbləğində təqaüdünün təsis olunması tapşırılır. Fərmanda qeyd olunur ki, bu təqaüd 2019-cu il aprelin 1-dək kommunal, nəqliyyat və digər xidmətlərə görə sosial müavinət alan şəxslərə həmin sosial müavinətin əvəzinə, əmək pensiyası alan və döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarına (Böyük Vətən müharibəsi iştirakçıları istisna olmaqla), habelə döyüş əməliyyatı aparılan ölkədə hərbi xidmət borcunu yerinə yetirmiş hərbi qulluqçulara əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə verilir.

Prezident cənab İlham Əliyevin aprelin 15-də imzaladığı daha bir sənədlə - "1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 2 iyul tarixli 2320 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Sərəncamla isə həmin kateqoriyalardan olan vətəndaşlara Prezidentin aylıq təqaüdünün məbləği 150 manata çatdırılır.

Beləliklə, imzalanan Sərəncam və Fərmanlar 600 minədək şəxsin (o cümlədən 300 min əlilliyi olan şəxsin) sosial müavinətlərinin, Prezidentin aylıq təqaüdlərinin ciddi şəkildə artırılmasını, əlavə olaraq bir sıra kateqoriyalardan olanlar üçün Prezidentin aylıq təqaüdlərinin təsis olunması ilə sosial təminat sisteminin əhatə dairəsinin daha da genişlənməsini nəzərdə tutur.

Qeyd olunan məqsədlər üçün əlavə olaraq illik 400 milyon manat ayrılmaqla, sosial müavinət və təqaüdlərin verilməsinə yönələn illik vəsait 2 dəfə artırılacaq. Bütün bu addımlar Prezident cənab İlham Əliyevin güclü sosial siyasətinin başlıca hədəfinin əhalinin rifahının təminatı olduğunu, bu siyasətin əsasında vətəndaş amili, sosial ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiq edir və ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır.

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi***

# AŞPA iftiralarla məşğuldur

***Avropa Şurası Parlament Assambleyası (AŞPA) çoxdandır ki, siyasi maraqların toqquşduğu poliqon kimi tanınır. Bir az da, daha dəqiq desək, bu təşkilat kimlərinsə sifarişi əsasında işini qurur, daha çox fövqəldövlətlərin, nüfuzlu qurumların əlinə oynayır. Yəni bu təşkilat artıq kimlərinsə, hansısa siyasi qüvvələrin maraqları naminə ittihamlar, özü də əsassız ittihamlar irəli sürən, qətnamələr qəbul edən bir quruma çevrilib.***

Bir beynəlxalq təşkilat olaraq, AŞPA istər ittihamlar irəli sürdüyü zaman, istərsə də qətmanə qəbul etdiyi zaman obyektiv araşdırmalara istinad etməlidir. Təkcə Azərbaycan cəmiyyəti deyil, bütün dünya ictimaiyyəti bunun əksini müşahidə edir.

Artıq heç kim üçün sirr deyil ki, bu beynəlxalq təşkilat hansısa siyasi qüvvələrin maraqlarını təmsil edən deputatların məsələyə münasibətinə, eyni zamanda, hansısa ölkəyə olan münasibətə görə qərarlar, qətnamələr qəbul edir, hətta ittihamlar səsləndirir.

Nəzərə almaq lazımdır ki, qurumda təmsil olunan deputatların münasibəti fərqli, hətta yanlış da ola bilər. Hansısa siyasi qüvvələrin öz maraqları naminə çalışmaları başədüşüləndirsə də, beynəlxalq təşkilat olan AŞPA-nın bu maraqlara xidmət etməsi, əsla, qəbuledilməzdir. Çünki beynəlxaq təşkilatlar ayrı-ayrı dövlətlər haqqında qərarlar verir və bu zaman hansısa maraqlar deyil, ədalət prinsipi ön planda olmalıdır.




## Azərbaycana “korrupsiya” iftirası atmaq cəhdi köhnə oyunun gündəmə gətirilməsi arzusudur

Cözügedən qurumun sabiq prezidenti Pedro Aqramunta qarşı aparılan kampaniyalar da sadalananları təsdiq edir. Xatırlatmaq yerinə düşərdi ki, Aqramunta qarşı ittihamlarla çıxış edən Avropa Sabitlik Təşəbbüsü (European Stability İnitiative - ESİ) kimi təşkilat idi. Hansı ki, bu təşkilatın Kataloniyanın müstəqilliyi uğrunda mübarizə aparan “QHT”lərlə sıx əlaqədə olduğu da gizli fakt deyil. Bəlli olur ki, maraqlara cavab verməyən sabiq prezident istefaya məcbur edilməli, bir sözlə, səhnəni tərk etməli idi. Belə də oldu və qondarma ittihamlara, özü də qondarma təşkilatların qondarma araşdırmalarına görə, biçarə Aqramunt korrupsiya ittihamları ilə uzaqlaşdırıldı.

Dünyada “şər iblisi” ləqəbli Corc Sorosu, onun fondunu tanımayan yoxdur və hansı daş qaldırılırsa, altından bu monstrın çıxdığı da, artıq dəfələrlə öz təsdiqini tapıb. Aqramuntun öz şəxsi araşdırmaları zamanı da daşın altından bu iblis çıxmışdı və bu işdə də onun barmağının olduğu bəlli oldu. Çünki Avropa Sabitlik Təşəbbüsü kimi bir təşkilatın da, onun əlaqədə olduğu QHT-lərin də donoru Soros və onun fondudur. Aqramunta korrupsioner damğası vurmaq, onu aradan götürmək bankları çökdürən, maliyyə monstrı kimi tanınan biri üçün sıradan bir fitnə olsa da, çox vacib idi və Aqramuntun adının “Azərbaycanın maraqlarını müdafiə edənlər” sırasında çəkilməsi bunu təsdiq edən arqumentdir.

Təəssüflər olsun ki, bu “şər iblisi” özünə lazım olan təşkilatları qidalandırır və buna görə də, ssenarini özü hazırlayır. Daha dəqiq desək, pulu kim verir və musiqini də o sifariş edir və istər QHT-lər olsun, istər bu QHT-lərlə əlaqədə olan təşkilatlatlar olsun, istərsə də bu qurumların maraqlarına xidmət edən deputatlar olsun, nə yazıq ki, hamısına komandanı bu iblis verir. Əslində isə, verilən komanda, yaxud qurulan ssenarinin arxasında başqa mətləblər dayanır və bu, tamam fərqli bir məqsədin, qurulan oyunun təzahürüdür.

Soros, yaxud hansısa QHT-lər, onlarla əlaqədə olan təşkilatların fəaliyyəti müzakirə mövzusu deyil. Lakin pərdə arxasında nələrin baş verdiyinin fərqində olmaq vacibdir ki, hadisələrin hansı istiqamətdə cərəyan etdiyi bəlli olsun. Bəlli olsun ki, 11 aprel tarixində AŞPA-da yenə də Azərbaycana “korrupsiya” iftirası atmaq cəhdi köhnə oyunun gündəmə gətirilməsi arzusudur. Ortada nə arqument var, nə obyektiv araşdırmalar var, nə də bu ittihamda bir reallıq. Ortada Soros kimi iblisin, onun maliyyələşdirdiyi qurumların siyasi maraqlara xidmət edən ambisiyalı fəaliyyət var.

İnsan və vətəndaş amilinə hesablanmış siyasətdən xəbərsiz olsa belə, bunu görməzlikdən gəlsə belə, bu, AŞPA-nın günahıdır, Azərbaycanın yox! Maraqlıdır, AŞPA üçün Sorosun, onun maliyyəsi ilə qidalanan təşkilatların, bu təşkilatların maraqlarına xidmət edən deputatların obyektiv araşdırmalara əsaslanmayan qondarma fikirləri vacib arqumentdir, yoxsa Azərbaycanda siyasi və sosial-iqtisadi islahatların dərinləşməsi, əhalinin maddi rifahının yüksəldilməsi istiqamətində mühüm addımların atılması? Sözügedən bu beynəlxalq təşkilatda təmsil olunan deputatlar ölkədə aparılan islahatlardan xəbərsiz deyillər. Təkcə son bir il, Prezident İlham Əliyevin sonuncu dəfə prezident seçildiyi vaxtdan ötən bu bir il ərzində aparılan islahatlar və yürüdülən sosial siyasət də ölkədə hansı ab-havanın olduğunu təsdiq edir. Ölkə başçısının şəhid olanların ailələrinə, vərəsələrinə 11 min manat məbləğində birdəfəlik yardımın verilməsi barədə Sərəncamından tutmuş, problemli kreditlərlə, dollar ekvivalentində götürülmüş kreditlərlə bağlı əhalinin borclanması yükünün götürülməsinə, yanmış ticarət mərkəzində fəaliyyət göstərən sahibkarlara dəyən maddi ziyanın qarşılanmasına qədər qəbul edilən qərarlar vətəndaş amilinə hesablanmış siyasəti təsdiq etmirmi? Təkcə bu ilin mart ayında imzalanmış Əfv Sərəncamının və bu Sərəncam əsasında yüzlərlə şəxsin azadlığa qovuşmasının bu beynəlxalq təşkilat, üçün əhəmiyyəti obyektiv olmayan hesabatlardan, arqumentsiz iddialardan azdırmı? AŞPA kimi bir beynəlxalq təşkilat, bu faktlara deyil, arqumentsiz və obyektiv araşdırmalara söykənməyən iddialara əsaslanmağı üstün hesab edirsə, bu, həmin təşkilatın öz problemidir.

Ölkəmizdə aparılan islahatları, reallaşdırılan qlobal layihələri, iqtisadi uğurları, dünya çapında Azərbaycanın nüfuz sahibi olmasını görməzlikdən gəlmək bütün bunları həzm edə bilməməyin təzahürüdür desək, yanılmarıq. Çünki bu uğurlar sayəsində, ölkə başçımızın rəhbərliyi ilə aparılan düzgün və uğurlu siyasət sayəsində, Azərbaycan günü-gündən daha qüdrətli dövlətə çevrilməkdədir. Belə bir qüdrətli dövlətin apardığı sosial siyasət də əldə edilən uğurlar sayəsindədir. Bu gün ölkəmizin insanların rifah halının yaxşılaşdırılması istiqamətində yürütdüyü sosial siyasət Azərbaycanın qüdrətinin daha da artdığını isbatlayır.

## Korrupsiya ittihamı barədə sübutların olmadığı etirafından sonra AŞPA-nın bu məsələni gündəmə gətirməsi qurumun öz imicinə zərbədir

Tutaq ki, AŞPA hansısa hesabatlara istinad etmək niyyətindədir və bu, həmin təşkilatın iş prinsipidir. O zaman nəyə görə “Opinion Way” şirkətinin rəy sorğusu nəzərə alınmır? Bu şirkət Avropada tanınan, sayılıb-seçilən, hesablaşılan şirkətdir və bu şirkətin sorğusu heç də sıradan bir sorğu deyil. Köhnə qitədə kifayət qədər tanınan bu Fransa şirkətinin Azərbaycanda keçirdiyi rəy sorğusu ölkə vətəndaşının mövqeyini ifadə edirdi və göründüyü kimi, sorğunun nəticələrinə görə, Azərbaycan cəmiyyəti Azərbaycan hökumətinin yürütdüyü siyasi, iqtisadi və sosial siyasətdən razıdır. Sorğunun nəticələri təsdiq edir ki, Azərbaycan vətəndaşı ölkə başçısının, dövlətin qayğısından məmnundur və bu qayğını yüksək qiymətləndirir. Sual oluna bilər, Azərbaycan hökumətinin yürütdüyü vətəndaş amilinə hesablanmış siyasət və insanlara göstərdiyi qayğılı münasibət ölkə vətəndaşından çox AŞPA-nı maraqlandıra bilərmi? Yaxud bu xüsusda, AŞPA, orada təmsil olunan deputatlar ölkə vətəndaşından daha maraqlı olarmı? Əlbəttə ki, ola bilməz. Əgər söhbət korrupsiya ittihamından, daha dəqiq desək, iftirasından gedirsə, bu məsələ də axı öz təsdiqini tapmayıb ki, AŞPA bundan çıxış etmək şansı əldə etsin.

Bu iddiaların sübutunun olmadığını, iftira olduğunu etiraf edən komissiya üzvləri də var və bu fakt özü-özlüyündə həmin qurum üçün yetərli deyilmi? Məsələn, ortaya atılmış iddiaların arxasında ciddi sübutların dayanmadığını AŞPA-da korrupsiya haqqında məlumatların tədqiq edilməsi məqsədilə yaradılmış komissiyanın üzvü, Avropa İnsan Hüquqları Məhkəməsinin sabiq sədri Nikolas Bratsa açıq şəkildə etiraf edib. Sabiq sədr, xüsusilə, vurğulayıb və etiraf edib ki, biz hansı məsələyə görə hansı hədiyyənin verildiyini bilmirik və bunu sübut edəcək dəlillərə də malik deyilik. Bu etirafdan sonra AŞPA-nın yenə də “korrupsiya” ittihamı ilə köhnə hava çalması, heç cür qəbuledilən deyil və qurumun, bilavasitə öz nüfuzuna zərbədir.

Göründüyü kimi, Avropa Şurası Parlament Assambleyası öz imicini artıq çoxdandır ki, zədələyib, hətta darmadağın edib. Bu beynəlxalq təşkilat ədalətli mühakimələr aparmaq, dövlətlər, millətlər, xalqlar barədə qərarlar, qətnamələr qəbul etmək üçün ədalət prinsipini əsas tutmadıqca, bu imic daha da darmadağın olur. Ona görə darmadağın olur ki, ədalətlilik missiyasını üzərinə götürməsinə baxmayaraq, AŞPA iftiralarla məşğuldur.

***İnam HACIYEV***

## Donald Tramp Türkiyənin maliyyə nazirini qəbul edib



ABŞ Prezidenti Donald Tramp Vaşinqtonda işgüzar səfərdə olan Türkiyə nümayəndə heyətinin rəhbəri Berat Albayrakı qəbul edib. Anadolu agentliyi xəbər verir ki, B.Albayrak sosial şəbəkədəki hesabında ABŞ Prezidenti ilə keçirilən görüşün məhsuldar olduğunu bildirib. Onun sözlərinə görə, Birləşmiş Ştatların maliyyə naziri Stiv Mnunçin və ABŞ Prezidentinin müşaviri Cared Kuşnerin də iştirak etdiyi görüşdə iki ölkə arasında maliyyə və ticarət sahəsində əməkdaşlığın perspektivləri müzakirə edilib.

Türkiyənin ticarət naziri Ruhsar Pekcan və müdafiə naziri Hulusi Akarın da daxil olduğu nümayəndə heyəti Vaşinqtonda ticarət və maliyyə məsələləri ilə yanaşı, hərbi sahədə əlaqələri də müzakirə ediblər.

## Danimarka polisi islam dini əleyhinə nümayişə icazə verməyib



Danimarka polisi qatı islam əleyhdarı olan siyasətçi Rasmus Paludana növbəti nümayiş keçirməyə icazə verməyib. Danimarka KİV-lərinin məlumatında deyilir ki, Kopenhagenin ətrafındakı Albertslund bələdiyyəsi ərazisində islam əleyhinə keçirilməsi planlaşdırılan nümayiş qanun keşikçiləri tərəfindən ictimai qadağan edilib. İctimai asayişin pozulacağı arqumentini əsas götürən polis bu rayonda gələcəkdə nümayişlər keçirilməsinə də icazə verməyib.

Polisin bu qərarının səbəbi nümayiş keçiriləcək meydanda əks düşüncəyə malik olan insanların - gənclərin, bir neçə sosialist təşkilatlarının toplaşacağı xəbəridir. Lakin nümayişin ləğv edilməsinə baxmayaraq, Albertslundda iğtişaşlar baş verib və əraziyə cəlb olunan polislər 5 nəfəri həbs ediblər.

# Paşinyan normal durumda deyil

*“Müharibəni qaçılmaz edən işğalçı Ermənistanın yürütdüyü siyasətdir”*

***İşğalçı Ermənistanın hərbi xuntası son vaxtlar bir-birinə zidd bəyanatlar verir və açıqlamalar səsləndirir. Paşinyan rejimi gah danışıqlarda qondarma “DQR”-in də tərəf kimi iştirak etməsinin vacibliyini bildirir, gah da müharibə ritorikasında danışır. Bütün bunlar Ermənistan baş nazirinin normal durumda olmadığını göstərir. Söhbət etdiyimiz müsahiblərimiz də Ermənistan rəhbərliyinin küçədən gəldiyi üçün küçə təfəkkürdə fikirlər söylədiklərini bildirdilər.***

## Politoloq Elşən Manafov: “Danışıqların alternativi hərb meydanıdır”



- Son zamanlar erməni tərəfi bəyanatlarında müharibə ritorikasını önə çəkirdi. Azərbaycan Prezidenti və hakimiyyəti ermənilərin bu tipli bəyanatlarına cavab olaraq, ermənilərin danışıqlardan qaçdığını dilə gətirdi. Müharibə ritorikasının artdığı bir zamanda, Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov bildirdi ki, əgər ermənilər mənimlə anlaşmayacaqlarsa, müdafiə naziri ilə danışacaqlar. Artıq diplomatik nümayəndələr də bildirirlər ki, əgər danışıqlar olmayacaqsa, məsələ hərb meydanında həll olunacaq. Hərbi ekspertlər müharibə ehtimalının yay aylarında olmasının böyük olduğunu qeyd edirlər. Bu baxımdan, tərəflər arasında münasibətlər yaxşı deyil və danışıqlarda ciddi bir irəliləyiş yoxdur. Danışıqlar formatının dəyişdirilməməsini Azərbaycan tərəfinin uğuru kimi dəyərləndirən politoloq, vurğulayıb ki, Azərbaycan formatın olduğu kimi qalmasına nail oldu. Azərbaycan heç bir halda separatçı rejimlə danışıqlar masası arxasında oturub, danışıqların həlli istiqamətində müzakirələr aparmayacaq. Problem Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsi olsa da, bəlli məsələdir ki, problemin kökündə Ermənistanın Azərbaycana ərazi iddiaları və işğal faktı dayanır. Danışıqlar yalnız BMT-nin Təhlükəsizlik Şurasının qətnamələri əsasında aparılmalıdır. Ermənistan tərəfi bilməlidir ki, ermənilərin Azərbaycan torpaqlarında ikinci erməni dövləti qurmaq xülyası alınmayacaq. Azərbaycan Ordusu hərbi əməliyyatları bərpa etsə, bu, həm Rusiyaya, həm də bölgədə maraqları olan dövlətlərə siqnal olacaq.

## Azərbaycan Mətbuat Şurasının sədr müavini, Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Rəhimoğlu: “Müharibə hər an baş verə bilər”

- Bir halda ki, Azərbaycan torpaqları hələ də işğal altındadır, bir halda ki, 1 milyondan çox qaçqın və məcburi köçkünlərimiz öz yurd-yuvalarından didərgindir, bir halda ki, tarixi torpaqlarımızdakı əcdadımızın məzarları, tarixi abidələrimiz məhv edilir, müharibə hər an baş verə bilər. Moskvada keçirilən Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünə gəldikdə isə, qeyd etmək istəyirəm ki, biz bu tipli danışıqları 30 ildir müşahidə edirik, lakin təəssüflər olsun ki, danışıqlar prosesində heç bir irəliləyiş yoxdur və buna səbəb işğalçı ölkənin bütün beynəlxalq hüquq prinsiplərinə zidd olaraq, nümayiş etdirdiyi destruktiv mövqedir. Lakin bununla belə son, görüşdə bəzi humanitar məsələlərlə bağlı əldə edilən razılaşmaları alqışlayırıq. Moskva görüşündə tərəflər KİV nümayəndələrinin qarşılıqlı səfərləri, girov və məhkumlara ailə üzvlərinin baş çəkmələri və kənd təsərrüfatı ilə məşğul olan vətəndaşların təhlükəsizliyi ilə bağlı müxtəlif humanitar məsələlərin həlli ilə bağlı razılaşma əldə ediblər. Lakin bu razılaşmalarla kifayətlənmək olmaz və hesab edirəm ki, humanitar məsələləri həll edib, ərazilərimizin işğaldan azad edilməsi ilə bağlı yekun razılaşmanın əldə edilməsi üçün qarşı tərəfi məcbur etməyin vaxtı çatıb. Müharibəni qaçılmaz edən digər bir faktor da qarşı tərəfin provakativ addımlarıdır. Ermənistan hökumət üzvləri, diaspora qurumları və müxtəlif lobbi qrupları Azərbaycanın əleyhinə təbliğat və təşviqat kampaniyaları-nı davam edirlər. Ermənistanın müdafiə naziri yeni ərazilərin işğalı ilə bağlı sərsəm bəyanatlar verir, baş nazir Paşinyan “əraziləri sülhə dəyişmərik” deyir, Ağdamda təmas xətti yaxınlığındakı işğal edilmiş ərazilərimizdə düşmən hərbi təlimlər keçirir və teztez cəbhə bölgəsində atəşkəs pozulur. Belə olan halda, sülhü bərqərar etmək necə mümkün ola bilər? Müharibəni qaçılmaz edən işğalçı Ermənistanın yürütdüyü siyasətdir. Çox gec olmadan Ermənistan bu radikal siyasətdən imtina etməlidir. Çünki bu siyasət Ermənistanı uçuruma aparır.



## Siyasi şərhçi Azər Həsrət: “İşğalçı dövlət inadkarlıq edir”



- Müharibə-Azərbaycanın heç vaxt ehtiyat variant kimi imtina etmədiyi seçimdir. Lakin dövlətimiz bütün hallarda bu münaqişəni siyasi danışıqlar müstəvisində həll etməyə üstünlük verir. Əlbəttə, Azərbaycan, hətta müəyyən güzəştlərə də gedir ki, Ermənistan öz yanlış siyasətindən əl çəksin. Lakin görürük ki, işğalçı dövlət inadkarlıq edir. Üstəlik də, təmas xəttində, məhz Ermənistan əsgərləri daim təxribatlar törədir, Azərbaycan əsgərlərini silaha əl atmağa məcbur etməyə çalışır. Bu baxımdan, düşünürəm ki, Ermənistanın bu mənasız inadkarlığı və davamlı təxribatları Azərbaycanı, nəhayət ki, ona tutarlı cavab verməyə və öz torpaqlarını azad etməyə vadar edə bilər. İstənilən halda, biz dövlət olaraq, sülh danışıqlarına sadiqik.

**GÜLYANƏ**

# Rektor Kuzminov: “UNEC və AİM eyni istiqamətdə hərəkət edir”

***UNEC rektoru, professor Ədalət Muradov Ali İqtisad Məktəbinin (AİM) (“Vısşaə Şkola Gkonomiki”) rektoru Yaroslav Kuzminovun dəvəti ilə XX Aprel Beynəlxalq Elmi Konfransında iştirak edib.***



Dünyanın aparıcı universitetlərinin nümayəndələrinin məruzəçi və iştirakçı qismində qatıldığı konfransda Harvard, Bonn, Kaliforniya, Miçiqan, Vyana, Florida, Sidney universitetlərinin və digər ali məktəblərin nümayəndələri fəxri məruzəçi qismində iştirak ediblər.

Konfrans RF-nın baş nazirinin birinci müavini və maliyyə naziri Anton Siluanov tərəfindən Rusiya Federasiyasının Prezidentinin təbrik məktubunun səsləndirilməsi ilə başlayıb. Konfransda RF-nin baş nazirin birinci müavini və maliyyə naziri Anton Siluanov, RF-nin Federal məclisi Dövlət Dumasının Büdcə və vergi üzrə Komitəsinin sədri A.M. Makarov, Rusiyanın Sənayeçilər və Sahibkarlar ittifaqının Prezidenti və Rusiyanın Ali İqtisad Məktəbi Elmi Tədqiqat Universitetinin Prezidenti A.N.Şoxin, Rusiyanın Mərkəzi Bankının sədrin birinci müavini K.V. Yudayeva, Rusiyanın Ali İqtisad Məktəbi Elmi Tədqiqat Universitetinin rektoru Y.İ. Kuzminov və digərləri çıxış ediblər.

Konfransda dövlət idarəçiliyi, maktoiqtisadiyyat və iqtisadi artım, beynəlxalq münasibətlər, dünya iqtisadiyyatı, sosial siyasət, maliyyə institutları və digər məsələlər müzakirə olunub. UNEC rektoru, professor Ədalət Muradovun Ali İqtisad Məktəbinin rektoru Yaroslav Kuzminov ilə görüşü zamanı ikitərəfli əməkdaşlıq imkanları geniş müzakirə olunub, ikili diplomla bağlı işlərə start verilməsi barədə razılıq əldə edilib.

Ə.Muradov UNEC-in Dərbənd filialının potensialından qarşılıqlı maraq və əməkdaşlıq çərçivəsində birgə istifadə edilməsi imkanlarına da toxunub. UNEC rektoru iki ildən artıq fəaliyyət göstərən Rus İqtisad Məktəbinin (RİM) bazasında Ali İqtisad Məktəbinin müxtəlif təhsil proqramlarının təşkil edilməsi perspektivləri, birgə tədqiqatların aparılması, nəticələrin SCOPUS və “Web of Science” platformalarına daxil olan “impact” faktorlu elmi nəşrlərdə dərc edilməsi imkanları haqqında danışıb.

AİM rektoru Yaroslav Kuzminov, AİM və UNEC-in eyni istiqamətdə hərəkət etdiyini qeyd edərək, universitetlər arasında tərəfdaşlığın aktiv inkişaf etməli olduğunu vurğuladı. AİM rektoru birgə “online” və “offline” təhsil proqramlarının yaradılması, (həmçinin Coursera platforması bazasında) birgə UNEC-HSE kursunun hazırlanması, UNEC doktorantlarının “Rossiyskiye postdoki” proqramında iştirak üçün dəvət edilməsi təklifləri ilə çıxış etdi. Beləliklə, UNEC doktorantı dissertasiyanın müdafiəsindən sonra iki il müddətində AİM-də təhsil almaq və dərs demək imkanı əldə edəcək.

Rektor Y.Kuzminov birgə elmi-tədqiqat laboratoriyalarının qurulması, şəbəkə təhsil proqramlarında iştirak, UNEC tələbələrinin RF-nın Prezidentinin layihəsi olan “Mən peşəkaram” olimpiadasında iştirakı kimi məsələlərə toxundu. AİM-nin təhsil proqramları və aspirantura üzrə prorektoru Sergey Roşin hazırda birgə təhsil layihələrinin, ikili diplom proqramlarının hazırlanması üçün bütün imkanların mövcud olduğunu bildirdi. Təkliflərin daha ətraflı müzakirəsi üçün may ayında Ali İqtisad Məktəbinin nümayəndələrinin UNEC-ə səfərinə dair razılıq əldə olunub.

UNEC rektoru Breyqel İnstitutundan (Belçika) məruzəçi Marek Dombrovski, ABŞ-ın Florida Atlantik Universitetindən olan fəxri məruzəçi Əli Farazmanda, Siena Universitetindən professor Maurisio Pompella, Katovays İqtisadiyyat Universitetindən professor İvona Paulas (Polşa), Ali İqtisad Məktəbindən professor Fuad Ələsgərov, AİM-in vitse-prezidenti İvan Prostakov, AİM-in Beynəlxalq inkişaf departamentinin rəhbəri Marina Batalina, AİM-in Sənaye və bazar tədqiqatları institutunun direktoru, professor Andrey Yakovlev, IDP şirkətindən Lorenso Kostantino ilə görüşlər keçirib. Eləcə də RF-da inklüziv təhsil üzrə lider olan Moskva Humanitar-İqtisad Universitetinə səfər edərək, rektor Vaqif Bayramov ilə görüşüb. Görüşdə ikitərəfli əməkdaşlıq, yüksək ixtisaslı kadrların hazırlanması istiqamətində görülən işlər, o cümlədən hər iki universitet arasında ikili diplom proqramının tətbiqi üçün işlərin tamamlanması müzakirə edilib

# Ronaldonu azərbaycanlı məmur oğlu çıxardılar

*“Azadlıq” qəzetindən növbəti iftira*




“Azadlıq” qəzetində “Azərbaycanlı məmur oğlu Londonda Lamborghini ilə qəza törətdi” başlıqlı məlumat yayılıb. Məlumatın inandırıcılığını artırmaq üçün qəzet foto da paylaşıb.

AzNews.az bu məlumat və foto ilə bağlı kiçik araşdırma aparıb. Məlum olub ki, “azərbaycanlı məmur oğlunun avtomobili” kimi təqdim edilən maşın əslində portuqaliyalı futbolçu, İtaliyanın “Yuventus” klubunun hücumçusu Kristiano Ronaldoya məxsusdur.

“Azadlıq” qəzetinin bəhs etdiyi qəzanı da ulduz futbolçunun özü törədib. Bir daha məlum olur ki, “Azadlıq” qəzeti yalan və qərəzli məlumatlar yayaraq Azərbaycan cəmiyyətində çaşqınlıq yaratmağa çalışır. Bu isə qeyri peşəkarlıq və ictimai əxlaqsızlıqdır! Ayıb olsun!

# Məsciddən pul oğurlayan şəxs saxlanılıb

Binəqədi rayonunun Biləcəri qəsəbəsində yerləşən məsciddə axundun iş otağından oğurluq edilib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, zərərçəkən rayon polis idarəsinin 6-cı Polis Bölməsinə müraciət edərək otağın qapısının naməlum şəxs tərəfindən qırıldığını və oradan 1500 manat, eləcə də 500 ABŞ dollarının oğurlandığını qeyd edib. Cinayəti törətməkdə şübhəli bilinən Gəncə şəhər sakini əvvəllər məhkum olunmuş Anar Mirzəyev bölmə əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat-axtarış tədbiri nəticəsində saxlanılıb. Saxlanılan şəxs ifadəsində törətdiyi əməli etiraf edib. A.Mirzəyevin oğurluq əməli məscidin təhlükəsizlik kameraları vasitəsilə də lentə alınıb.

# Əli Kərimlinin "harda aş, orda baş" siyasətbazlığı

*O, qarğa burnunu girmədiyi yerə dürtür*



***Bir neçə gündür ki, ölkə ictimaiyyəti 162 saylı orta məktəbdə özünü pəncərədən ataraq, canına qəsd edən 14 yaşlı Elinadan danışır. Əslində, Elinanın intihar nəticəsində həyatını itirməsi və bu hadisədən doğan gerçəkliklər hər kəsi ciddi şəkildə düşündürməli və narahat etməlidir. Çünki Elinanın nakam taleyi bu gün onun kimi həssas yaş dövrünü yaşayan digər Elinaların da başlarına gələ bilər.***

Qeyd edək ki, 162 saylı orta məktəbin şagirdinin intihar etməsi ilə bağlı müvafiq dövlət orqanları tərəfindən araşdırmalar gedir və bu məsələ ilk gündən Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət mərkəzindədir. Belə olan halda, bu gün özünü müxalifət düşərgəsinin "lideri" hesab edən AXCP sədri Əli Kərimlinin, məsələni mahiyyətini anlamayaraq, sosial şəbəkələrdə mitinq keçirməyə çağırışlar etməsi yenə də bu satqının iç üzünü bir daha nümayiş etdirir. "Harda aş, orda baş" olan Ə.Kərimli qarğa burnunu o yer qalıb ki, soxmasın? Ay bədbəxt, satqın, maşennik bilməlisən ki, təhsil millətin gələcəyidir. Bunu Ə.Kərimli kimi satqın və cinayətkarlar anlamayıb və anlamağa da o "başları" yoxdur.

Bu gün dövlətimiz prioritet saydığı strateji əhəmiyyətli təhsil sahəsində uğurlu islahatlar aparılır və aparılmaqdadır. Zaman artıq yeni təfəkkürü, yeni təhsil-idarəetmə, şagirdə və məktəbə modern münasibət istəyir. Prezidentimiz İlham Əliyevin təhsil sahəsində yürütdüyü məqsədyönlü siyasət ölkəmizdə modern düşüncəyə, yeni dünyəvi təfəkkürə, eyni zamanda, milli-mənəvi dəyərlərə, şüura əsaslanan təhsil strategiyasını həyata keçirmək, insan kapitalını inkişaf etdirmək, intellekt resurslarını artırmaq üçün kifayət qədər geniş imkanlar açır.

## Bulanıq suda balıq tutmaq istəyən iblis xislətli...

Bu, o Ə.Kərimlidir ki, zaman-zaman Azərbaycanın uğurlu siyasətinə qarşı iyrənc əməlləri ilə iblis xislətini nümayiş etdirib. Ancaq atalarımızın dediyi kimi, sirkə nə qədər tünd olsa, öz qabını çatladar". Çünki Azərbaycanda güclü xalq - iqtidar birliyi var və dəfələrlə bu birlik fors-major hallarda özünü göstərib və Ə.Kərimli kimi satqınların Azərbaycanda suyu bulandırmaq cəhdləri həmişə fiaskoya uğrayıb. Odur ki, bulanıq suda balıq tutmaq istəyən Ə.Kərimli kimilər bilməlidirlər ki, Azərbaycan vətəndaşını öz xəbis niyyətinin icraçısına çevirə bilməyəcəklər. Çünki belələrinin əsl mahiyyəti alət olmaqdır. Bu gün alətə çevrilən "siyasi məhbus" adı ilə çalışan Ə.Kərimli kimi zəhərli siyasət rüşeym sosial şəbəkələrdə Azərbaycana qarşı "savaş" açmaq tapşırığını yerinə yetirməklə, erməni sevgilərini nümayiş etdirsə də, heç nə dəyişməyəcək və necə ki, heç bir şey əldə edə bilmir. Çünki Ə.Kərimli "siyasi məhbuslar"ın azad olunması ilə bağlı keçirmək istədiyi mitinqin biabırçılığından utanmayaraq, indi də intihar edənlərlə bağlı sosial şəbəkələrdə mitinq keçirmək çağırışı etməsi, həqiqətən də, abırsızlıqdır. Bunu anlamaq lazımdır. Misal məqamında gəldiyi üçün deyirəm: "eşşək palçıqda bir dəfə batanda, yolunu dəyişir". Ancaq görünür, bu Ə.Kərimli gönü qalındır. Bir də bu zəhərli əxlaqsız qrantlara görə həmişə bütün mənəviyyatını satıb.

## "Siyasi mühacirlər" və yaxud Əli Kərimlinin törəmələri

Bu gün xarici ölkələrdə Azərbaycan əleyhinə "sapı özümüzdən olan baltalar" Əli Kərimlinin göstərişini yerinə yetirən törəmələrdir. Bu törəmələr ermənipərəst dairələrin qrantları hesabına Azərbaycana qarşı satqınçılıq edən bu şərəfsizlər - Həbib Müntəzir, Arzu Qeybulla, Orduxan Teymurxan, Məhəmməd Mirzəli, Tural Sadıqlı, Arif Məmmədov, Qənimət Zahid, Natiq Güləhmədoğlu, Fikrət Hüseynov, Ataxan Əbilov, Arif, Leyla, Ramiz Yunus kimi antimilli ünsür şərəfsizlər istifadə olunub yararsız halda zibilliyə atılıb. İndi zibilliyə atılan bu əxlatsızlar qaşınmayan yerdən qan çıxarmaq üçün mitinq keçirməklə, guya xalqa "qayğılarını" nümayiş etdirmək istəyirlər. Ancaq bu, baş tutan iş deyil. Çünki sizin kimi satılıb-satanların qatarı çoxdan gedib. Xalq artıq sizin kimi şərəfsizləri çoxdan arxiv küncünə atıb. Ə.Kərimli kimi parazitlər anlamalıdırlar ki, alət olunaraq istifadə müddətini çoxdan bitiriblər. Hay-küy salmağa isə ehtiyac yoxdur və tarixin arxivində ləkəli adam kimi qalacaqlar.

**Rəfiqə HÜSEYNOVA**

# Qrant davası nə birinci, nə də sonuncudur

*Xədicə İsmayıl: "Sevinc Osmanqızının internet üzərindən hazırladığı verilişlərin sponsoru eks-spiker Rəsul Quliyevdir"*



***Yenə də Azərbaycan əleyhinə pula satılanların növbəti davası başlandı. Özünü "araşdırıcı jurnalist" hesab edən erməni xislətli X.İsmayılla "Amerikanın səsi"ndə Azərbaycan dövləti əleyhinə çıxışlar edən S.Osmanqızı arasında baş verən dava yenə qrant üstündə olub. Xədicə İsmayıl Sevinc Osmanqızının internet üzərindən hazırladığı verilişlərin sponsorunun eks-spiker Rəsul Quliyev olduğunu bildirib. O da, qarşı tərəfi qrantları təkbaşına yeməkdə suçlayıb.***

Ən maraqlı məqam isə, hər işdə kələkbaz olan bu qrant yalaqları söyüşləri də "yağ kimi" qəbul edirlər, üzlərinə tüpürsünlər təki qrant alsınlar. Əxlaqsızlıq və mənəviyyatsızlıq budur. Bu siyasi dəllallar üçün heç vaxt dövlət, vətən, xalq amili mövcud olmayıb. Müəyyən erməni lobbilərinin təsirləri altında fəaliyyət göstərən donor təşkilatlarla da gizli iş görən bu ünsürlər erməni dəyirmanına su tökməklə, erməni çörəyi yeyənlərdir.

## Xədicə İsmayıl-Sevinc Osmanqızı savaşına qoşulan Aslan İsmayılov - Qurban Məmmədov savaşı

Görünür, bu xəmir hələ çox su aparacaq. Saqqız kimi çeynəndikcə, uzanan qrant savaşına qoşulan "hüquq müdafiəçisi" Aslan İsmayılov və Qurban Məmmədov arasında qarşıdurma yaranıb. Məqsəd birdir - Avropa küçələrindən qrant yığmaq və qarınlarını doyuzdurmaq. Bu qədər bəsit bir olay. Elə bu səbəbdən də, özünü "hüquq müdafiəçisi" hesab edən A.İsmayılov qranta görə ağzını açır, nə açır. Bir də A.İsmayılov hansı "siyasi məhbus"un vəkili olub? Heç birinin. Aslan və onun kimilərinin nə mənəvi, nə də siyasi haqqı var ki, illərdi bütün çətinliklərə sinə gərib, mövqeyində qalan insanlara bir söz deməyə?

## Qurban Məmmədov: "İkiüzlü Aslan İsmayılov müxalifətin qəbirqazanıdır"..

Q.Məmmədov A.İsmayılovu müxalifətin qəbirqazanı adlandırıb: "Bu, o A.İsmayılovdur ki, nə müxalifət təəssübünü çəkir, nə demokratiya mücahididir. Onların heç birini xalqın rifahını və ölkənin inkişafını düşünən adam saymıram. A.İsmayılov, göründüyü kimi, "ənənəvi" müxalifətin qəbirqazanıdır. O, tamahkar və pul hərisidir. Nə yaxşı "vəkildir", nə normal ziyalı, nə də əqidəsi olan biridir. A.İsmayılov, sadəcə, marionetkadır, oyuncaqdır, kukladır və bunu tam məsuliyyətimlə deyirəm. Bəsit R.Quliyevin primitivliyinin təkrarıdır.

Bax, budur uzun illər Amerikada yaşayan "siyasi mühacir"lərin xəyanətkarlığı. Bu parazitlər hesab edirlər ki, ermənilər bizim düşmənimiz deyil, çünki üzlərinə tüpürüb, 5-10 qəpik aldıqları yer var. Bu baxımdan, bu parazitlər sosial şəbəkələr vasitəsilə erməniyə olan sevgilərini açıq-aşkar bəyan etməklə, əsl simalarını göstərmiş olurlar. Çünki belələrinin damarlarında illərlə xəyanətkar qanı axıb. Lənət olsun bu xəyanətkarlara!

**Rəfiqə HÜSEYNOVA**

# Müxalifət "zəifik" etirafını edir, amma...

*Digər həqiqətləri səsləndirməyə cürət etmir*

***Son zamanlar ənənəvi müxalifət düşərgəsində kəskin qarşıdurmaların və ziddiyyətlərin artması, bir daha təsdiq edir ki, bu cinahda yer alan partiyalar və ayrı-ayrı şəxslər, hətta bundan sonrakı illərdə belə, heç bir ortaq məxrəcə gələ bilməməklə yanaşı, oturduqları budaqlarını kəsməkdə davam edəcəklər. Xüsusilə, partiyalararası, hərəkatlararası münasibətlərin pozulması faktları, misal üçün, "Milli Şura"-"REAL", "AXH"-daxili qarşıdurmalar, AXCP-Müsavat düşmənçiliyi bu cür əsaslanmağa kifayət qədər zəmin yaradır.***



## Onların bəlli etiraflarda bulunmaları, açığı desək, təəccüb doğurur

Digər maraqlı məqam isə budur ki, baş verənləri elə müxalifətdəki təmsilçilər də açıq-aşkar etiraf edirlər. Baxmayaraq ki, onlar parçalanma məsələlərində iştirakçıdırlar və özlərinin də təmsil olunduqları düşərgəyə zərbələri dəyir, onların bəlli etiraflarda bulunmaları, açığı desək, təəccüb doğurur.

Misal üçün, bir neçə gün öncə, "AXH"-də AMDP sədri İsgəndər Həmidovla qarşı-qarşıya gələrək, əl-qol davasına çıxan Ağ partiyanın sədri Tural Abbaslı etiraf edir ki, Azərbaycan siyasi səhnəsində bu günə kimi müxtəlif tərkibdə və müxtəlif formatda müxalifət birlikləri və bloklarının yaranması faktdır. "O da, həqiqətdir ki, bu birlik və bloklar ya səssiz şəkildə, ya da qarşılıqlı ittiham və tənqidlərlə, hətta təhqirlərlə işinə xitam verib" deyən müxalifətçi partiya sədri nə qədər maraqlı görünsə də, burada qeyri-adi heç nəyin olmadığını bildirib. Amma ortada qeyri-adi heç nə yoxdursa, bu zaman qalmaqallar, dava-dalaşlar nədən qaynaqlanır? Söz yox ki, burada şəxsi maraqların mövcudluğunu etiraf etməyə heç bir müxalifət partiya sədrinin cürəti çatmır. Bu baxımdan, T.Abbaslının belə məsələlərdə, bilavasitə deyil, dolayı etiraflar etməsi, onun qeyri-səmimiliyinin aşkar göstəricisidir.

## Tural Abbaslı özünü necə sığortalamağa çalışır?

Dağılma və parçalanmalarda ən asan variant kimi hakimiyyəti günahlandırmaq da, onların köhnə peşəsidir desək, yanılmarıq. Misal üçün, Ağ partiyanın sədri öz etiraflarını edərək, sonda "nöqtəni" hakimiyyətin üzərində qoymağa cəhd edib. "Blok və birliklərin dağılma səbəbləri içərisində şəxsi ambisiyaları, ümumi dil tapılmamasını, qarşılıqlı dialoq və konsensus çatışmazlığını, hətta hakimiyyətin bu parçalanmada maraqlı olmasını da göstərmək olar" deyən müxalifət nümayəndəsi, çox yəqin ki, öz gözündəki tiri görməyərək, başqalarının gözlərində qıl axtarmaqla, bir növ, özünü sığortalamağa çalışır. Amma onun bu cəhdi, əlbəttə ki, kənardan məntiqsiz görünür.

## Əli Orucov da Tural Abbaslı kimi danışdı...

AMİP-in katibi Əli Orucov da, demək olar ki, T.Abbaslı ilə eyni mövqedən çıxış edərək, müxalifətdaxili ağır vəziyyəti açıq-aşkar etiraf etmək yerinə, hər şeyi hakimiyyətin üzərinə yıxmağa çalışıb. "Siyasətdə də əbədi heç nə olmur" deyən AMİP səlahiyyətlisinə görə, atılan addımlar da bəlli zamanlarda və uyğun maraqlara hesablanır: "Lakin burada müəyyən səhvlərin olması da etiraf edilməlidir: "Çünki bu səhvlər təhlil edilib aradan qaldırılmayanda, təkrarlanır və ümumi fəaliyyətə zərər vurur. O səhvlər ondan ibarətdir ki, partiyalar arasında birliklər, adətən, ideoloji və təməl prinsiplər üzərində qurulmalıdır. Lakin Azərbaycanda bu tələbə əhəmiyyət verilmir, təsnifatlar nəzərə alınmır-sağdır, soldur, mərkəzçidir və sair nəzərə alınmır".

Bu kimi etiraflardan sonra, onun da siyasi həmfikri kimi, müxalifətin dağılmasında hakimiyyətin marağının olması iddiasını irəli sürməsi gerçək təsir bağışlamır. Çünki zəif və uğursuz müxalifət güclü hakimiyyətə heç nə etmək təsirinə malik deyil. Əksinə, müxalifət hakimiyyətlə dialoqa gedərək, ayaqda qalmağa çalışmalı, ümummilli məsələlərdə iqtidara dəstək göstərməlidir. Amma belə müxalifət nə xalqa, nə dövlət maraqlarına heç bir xidmət göstərmir. Onların yeganə xidmətləri var ki, bu da bir-birlərini didib, siyasi arenadan birdəfəlik silinməkdir.

**Rövşən RƏSULOV**

# Qadın hüquqlarının müdafiəsinə dair beynəlxalq siyasət

***BMT Konvensiyasından sonra qadın hüquqlarının müdafiəsi üzrə beynəlxalq siyasətin inkişafında xüsusi rol 2000-ci ilədək qadınların vəziyyətinin yaxşılaşdırılması sahəsində Nayrobi perspektiv strategiyalarına məxsusdur; həmin strategiyalar 1985-ci ildə Nayrobidə keçirilmiş Qadınların Vəziyyətinə dair III Ümumdünya Konfransında qəbul edilmişdi. Qadın onilliyi qadınların və kişilərin hüquqlarının bərabərləşdirilməsi yolunda bir çox əngəlləri göstərdiyinə görə, Nayrobi strategiyaları bərabərliyin daha dərin anlayışından çıxış edərək, qadın hüquqları ilə bağlı situasiyanın yaxşılaşdırılması üzrə əsas fəaliyyət istiqamətlərini müəyyənləşdirirdi.***

S.V.Pelenina və O.A.Voronina göstərir ki, əgər o çağadək beynəlxalq hüquqi praktikada bərabərlik, müstəsna olaraq, hüquqi anlayış kimi anlaşılırdısa, Nayrobi perspektiv strategiyalarında qeyd edilirdi ki, de-jure bərabərlik məhdud xarakter daşıyır. Əsl bərabərlik - de-fakto qadınlar üçün hüquq, öhdəliklər və imkanlar bərabərliyini güman edir. Nayrobi perspektiv strategiyaları praktiki olaraq, həyatın bütün sferalarında, gender bərabərliyinə nail olmağın yollarını, üsullarını və mexanizmlərini müəyyən edir, bu zaman qadınlar arasında irqi və etnik mənsubluğa və sosial statusa görə fərqləri də nəzərə alır.

T.L.Baranova yazır ki, qadın hüquqlarının müdafiəsi üzrə beynəlxalq-hüquqi fəaliyyətin sonrakı inkişafı İnsan Hüquqları üzrə Ümumdünya Konfransında (Vyana, 1993) Vyana Bəyannaməsinin və Fəaliyyət Proqramının qəbul edilməsi ilə bağlıdır. Bu sənədlər hüquq-müdafiə mexanizmlərinin vəziyyətinin uzun sürən müzakirə prosesinin kulminasiyası olub. Ümumi İnsan Hüquqları Bəyannaməsinin (ÜİHB) əsasında yaradılmış insan haqları sahəsində sənədlər korpusunun möhkəmləndirilməsi və həyata keçirilməsi üzrə səylərə rəvac verdi. Burada, ilk dəfə xülasə olunurdu ki, qadınların və qızların hüquqları insanın ümumi ayrılmaz, tərkib və bölünməz hissəsidir. S.Ayvazovanın fikrincə, bu zaman qadınlar üzərində zorakılığın qarşısının alınması üzrə beynəlxalq birliyin fəaliyyətinin əhəmiyyəti üzərində vurğu qoyulur. Sənədlərdə, məsələn, "ictimai və özəl həyatda qadınlara münasibətdə zorakılığa son qoyulması üzrə seksual qısnamaların bütün formalarının ləğvi üzrə, qadınların istismarına və qanunsuz ticarətinə qarşı, ədliyyənin həyata keçirilməsi zamanı cinsi əlamətə görə ayrı-seçkiliyin ləğvi üzrə işlərin vacibliyindən bəhs edir.

Y.Şakuro göstərir ki, Vyana Konfransının tövsiyələri əsasında BMT Baş Məclisi 1993-cü il dekabrın 20-də Qadınlara münasibətdə zorakılığın aradan qaldırılması haqqında Bəyannamə qəbul etdi. Sözügedən Bəyannamədə, ilk dəfə olaraq, "qadınlara münasibətdə zorakılıq" anlayışı açılır. Bu, cinsi əlamət əsasında törədilən və qadına cinsi, fiziki və psixoloji zərər və əzab gətirən, cinsi əlamət daşıyan və ya bu aktların olunma təhlükəsini, istər şəxsi, istərsə də ictimai həyatda azadlıqdan məcburi və ya konüllü məhdudiyyətlərinə özündə əks etdirən istənilən zorakılıq aktını bildirir. Beləliklə, zorakılıq aktı kimi qadınlara qarşı fiziki, cinsi və psixoloji zorakılığın geniş diapazonu təsnif olunurdu.

S.V.Polenina qeyd edir ki, bu sənədə əsasən, BMT üzvü olan dövlətlər BMT orqanlarına təqdim etdikləri insan hüquqları haqqında məruzələrə qadınlara münasibətdə zorakılığa və onun aradan qaldırılmasına dair tədbirlər haqqında məlumatı, habelə, bu məsələdə təmayüllərin təhlilini daxil etməyə boyun olurdular. Həmçinin, BMT-nin İnsan Hüquqları üzrə Komissiyası tərəfindən qadınlara münasibətdə zorakılıq məsələsi üzrə xüsusi məruzəçi təyin olunurdu.

BMT-nin Qadınların Vaziyyətinə dair IV Ümumdünya Konfransında (Pekin, 1995) qəbul edilmiş sənədlər və "Pekin" Proqramı çərçivəsində hazırlanan sonrakı material və strategiyalar problemin idrakında yeni mərhələdən xəbər verirdi. Pekin konfransı milli hökumətlərə texniki, idarəçilik və sahibkarlıq fəaliyyət sferalarında qadınların kişilərlə bərabər tərəfdaş kimi imkanlarını genişləndirməyə imkan verən xüsusi strategiyalar və proqramlar işləyib-hazırlamağı tövsiyə etdi.

Qeyd edək ki, bu konfransın qəbul etdiyi sənədlər kontekstində qadınların vəziyyətinin yaxşılaşdırılması və ayrı-seçkiliyin aradan qaldırılması zərurətinin vurğulanmasından gender bərabərliyi ideyasına tədrici keçid baş verir.

Sevil Abbasova yazır: "Pekin Bəyannaməsi beynəlxalq-hüquqi sənəddən daha çox, siyasi sənəddir. Orada qadınların gerçək durumunda problemli bölgələr işarələnir və situasiyanın yaxşılaşdırılmasına dair ən ümumi siyasi, sosial və iqtisadi strategiyalar cızılır. "Qadın hüquqları insan hüquqlarıdır" (maddə 14) və "qadınlara və qızlara bütün insan hüquqlarından və əsas azadlıqlardan tam surətdə istifadə etmək və bu hüquq və azadlıqların pozulmasına qarşı təsirli tədbirlər almaq imkanının" təmin olunması (23 maddə), habelə, bərabərliyə nail olunması yolundakı bütün əngəllərin aradan qaldırılması (24-cü maddə) zəruriliyi üzərində israr edən Bəyannamə bir daha dünya birliyinin gender bərabərliyi dəyərlərinə oriyentasiyasını təsdiq edir. "Bərabər hüquqların, imkanların və resurslara bərabər girişi və kişilər va qadınlar arasında ailə öhdəliklərinin bərabər şəkildə bölüşdürülməsinin və onlar arasında ahəngdar tərəfdaşlığın onların (kişi və qadınların) və ailələrinin firavanlığı, habelə, demokratiyanın möhkəmlənməsi üçün aparıcı önəmə malik" olduğunu iqrar edən (maddə 15) Bəyannamə köhnə və yeni demokratiyalar üçün yeni oriyentirlər müəyyən edir. 26-cı və xüsusən də, 35-ci maddələrdə "qadınlara iqtisadi resurslara, o cümlədən torpağa, kreditlərə, elm və texnikaya, peşəkar hazırlığa, informasiyaya, kommunikasiya vasitələrinə və bazarlara bərabər girişini" təmin etmək zərurəti xüsusi vurğulanırdı. Xüsusən, 32-ci maddə əhəmiyyətlidir, orada cinsi əlamətə görə qadınların ayrı-seçkiliyi ilə mübarizə onların irq, etniki mənsubiyyət, yaş, mədəniyyət əsasında güclənən ayrı-seçkiliyini nəzərə almaq zərurəti ilə (yəni müasir cəmiyyətlərdə qüvvədə olan başqa-stratifikasiya amilləri ilə) əlaqələndirilir.

Pekində qəbul edilmiş ikinci sənəd - Fəaliyyət Platformasının məqsədi Nayrobidə 1985-ci ildə qəbul edilmiş qadınların vəziyyətinin yaxşılaşdırılması sahəsində perspektiv strategiyalarının həyata keçirilməsinin sürətləndirilməsi və qadınların ictimai və özəl həyatın bütün sferalarına fəal surətdə cəlb olunmaları yolunda bütün əngəllərin aradan qaldırılmasıdır. Bu sözün müstəqim mənasında geniş həcmli sənəd qadınların və kişilərin hüquq bərabərliyini insan hüquqlarının aspektlərindən və sosial ədalətin təminatı şərtlərindən biri kimi dəyərləndirməklə, "qadınların imkanlarının genişləndirilməsi üçün gündəmi təmsil edir" (Fəaliyyət Platforması, 1995,1). Bu hüquq və məsuliyyət bərabərliyi prinsipinin ailədə, işdə və daha geniş milli və beynəlxalq kontekstdə təsbiti zərurətini güman edir. Başqa sözlə, qadınların imkanlarının genişləndirilməsi onların kişilərlə hüquqlarda və məsuliyyətdə bərabərləşdirilməsi kimi təsəvvür olunur. Bərabərlik üzərinə vurğunu qoyan Platforma, fəqət, onu (bərabərliyi) qadınların kişilərlə eyniyyəti kimi yozmur. Fərqliliklərin əhəmiyyətli olduğu etiraf edilir, lakin onlar bioloji öncədən təyin edilmişlik kimi deyil, hər bir cinsin sosial cəhətdən determinə edilmiş rollarının nəticəsi kimi anlaşılır".

Platformada 12 ən mühüm problem sahəsi müəyyən edilmişdir. Onların sırasına daxildir qadınlar arasında yoxsulluq və səfalət, qadınların təhsili və peşə hazırlığı, qadınlar və səhiyyə, qadınlara qarşı zorakılıq, qadınlar və silahlı münaqişələr, qadınlar və iqtisadiyyat, qadınların hakimiyyət strukturlarında və qərarların qəbulu prosesində iştirakı, qadınların vəziyyətinin yaxşılaşdırılmasının institusional mexanizmləri, qadın-insan hüquqları, qadın və kütləvi informasiya vasitələri, qadın və ətraf mühit, qız uşaqları. Platformada, həmçinin, bu məqsədlərə çatmaq üçün hökumətlərin, beynəlxalq birliyin və özəl sektorun qəbul etməli olduğu strateji məqsəd və tədbirlər təklif olunmuşdur. Pekin Fəaliyyət Pfatforması qadınların yerli cəmiyyətlərin, özünüidərəetmə orqanlarının işində və qərar qəbulu prosesində iştirak etmək hüquqlarını inkişaf etdirir və irəli aparır. Platformanın xüsusi - "G" bölməsi, məhz qadınların direktiv orqanların işində və qərarların qəbulu prosesində iştirakı məsələlərinə həsr edilmişdir. Orada deyilirdi ki, "qadınların dolğun həyat sürmələrinə əngəllər yaradan hakimiyyət münasibətləri cəmiyyətin müxtəlif səviyyələrində fəaliyyət göstərir - sırf şəxsi səviyyədən tutmuş, kəskin ictimai (publik) səviyyəyə kimi. Qadınların və kişilərin qərarların qəbulu prosesində bərabər hüquqlu iştirakı məqsədinə nailolma cəmiyyətin tərkibini daha dəqiq əks etdirən və demokratiyanın gərəkli funksionallığının möhkəmləndirilməsi və yardım edilməsi üçün zəruri olan balansı təmin edir. Əsas hədəflərdən biri kimi BMT-nin İqdsadi və Sosial Şurası tərəfindən müəyyən edilmiş qadınların rəhbər vəzifələrdə 30 faizlik təmsilçiliyinə nail olmaq göstərilirdi bu vəzifə 1995-ci ilədək həll olunmalı idi, lakin o il ümumən dünya üzrə qadınların qanunverici orqanlarda təmsilçiliyi 10%-i keçmirdi, nazir vəzifələrində isə daha az qadın təmsil olunmuşdu".

Məhz Pekindən sonra qadın sağlamlığı və qadınlara qarşı zorakılıq mövzuları aklual beynəlxalq problemlərin ayrılmaz hissəsinə çevrildi. Beləliklə, qeyd etmək olar ki, Vyana Konfransı beynəlxalq ictimaiyyətin diqqətini qadın hüquqları məsələsinə cəlb etdisə, Pekin Konfransı irəliyə doğru daha bir addım ataraq, bu problemləri beynəlxalq nəzarət altına aldı.

S.Abbasovanın fikrincə, 1995-ci ildə Avropa Şurasının təşəbbüsü ilə gender bərabərliyi probleminə kompleks yanaşma (gender mainstreaming) barəsində məsələyə dair mütəxəssislər qrupu yaradıldı. Bu cür yanaşmaya dair konsepsiya ilk dəfə BMT-nin Qadın Problemləri üzrə III Ümumdünya Konfransının (Nayrobi, 1985) keçirilməsindən sonra meydana gəldi. "Gender mainstreaming" qadınlar və kişilər arasında bərabərlik meyarlarının "mainstream" termini ilə işarələnən cəmiyyətin təşkilinin ümumi sisteminə daxil edilməsi zəruriliyini bildirir. Sonralar bu konsepsiya BMT-nin Qadın Problemləri üzrə IV Ümumdünya Konfransında (Pekin, 1995) qəbul edilmiş Fəaliyyət Proqramında bayənildi.

Hal-hazırda bu yanaşma Avropada - istər Avropa İttifaqı (Aİ) səviyyəsində, istərsə də ayrı-ayrı ölkələrdə inkişaf etdirilir. Hərçənd, onun vahid tərifi olmasa da, gender bərabərliyinə kompleks yanaşma "qadınlar və kişilər arasında bərabərliyin irəliləməsi üçün sosial siyasət üzrə proqramlara qadınların və kişilərin prioritetlərinin və tələbatlarının sistemli inteqrasiyası; qadınlara və kişilərə münasibətdə sonrakı monitorinq və dəyərləndirmə ilə artıq planlaşdırma mərhələsində xüsusi tədbirlərin effektinin nəzərə alınması ilə müşayiət olunan bərabərliyə nail olmağa dair sosial siyasətin xüsusi tədbirlərinin inkişaf etdirilməsi" kimi anlaşılır. Gender bərabərliyi sahəsində kompleks siyasətin çıxış nöqtəsi, bütövlükdə, cəmiyyətdir. Kompleks yanaşma fundamental strategiyadır, ona görə də, onun həyata keçirilməsi uzun zaman tələb edir. Onun yeniliyi və spesifikliyi ondadır ki, o, həm qadınların, həm də kişilərin maraq və dəyərlərini inteqrasiya edir. Kompleks yanaşma "bərabərliyin fərqliliklərin çoxşəkilliyini və mövcudluğunu dəyərləndirən daha geniş və daha dolğun tərifini güman edir və cəmiyyətin kişilərə mənsub "qütbləşməsinin" və gender bərabərsizliyinin struktur xarakterinin yenidən gözdən keçirilməsi haqqında məsələ qaldırır".

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 17 aprel


## Göz xəstəliklərinin dərmanı bu bitkidir



Bütün xəstəliklərin dərmanı təbiətdə gizlidir. Məsələn, aloe bitkisi faydalı xüsusiyyətləri sayəsində bir çox xəstəliklərin, o cümlədən göz zəifliyinin dərmanıdır.

Axşam.az xarici mətbuata istinadən xəbər verir ki, hər gün kompüterdən və telefondan istifadə gözləri zəiflədə bilir.

Əgər sizə təqdim etdiyimiz resepti 3 ay ərzində istifadə etsəniz, gözlərinizdə baş verən dəyişikliyi özünüz hiss edəcəksiz. 100 qr. aloe, 300 qr. xırdalanmış qoz ləpəsi, 300 qr. təmiz bal və 3-4 ədəd limonun suyunu blendrdə qarışdırıb, gündə 3 dəfə qəbul edin. Bundan əlavə gündə bir neçə dəfə göz məşqləri etmək sizi bu xəstəikdən qurtaracaq.

## Bakcell yeni baş icraçı direktorun işə başlayacağını elan edir



Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkətinin yeni baş icraçı direktoru vəzifəsinə cənab Rainer Rathgeber təyin ediləcək. O, şirkətdə fəaliyyətinə növbəti ay ərzində müvafiq prosedurlar bitdikdən sonra başlayacaq.

Telekommunikasiya sahəsində 20 illik iş təcrübəsinə malik olan cənab Rathgeber Avropa və Asiya ölkələrində bir sıra rəhbər vəzifələrdə çalışıb. Almaniyada "Deutsche Telekom AG" strukturlarında rəhbər vəzifələrində çalışan cənab Rathgeber "T-Mobile International AG"də vitse-prezident, "T-Mobile Croatia"da baş icraçı direktor, "Croatian Telekom"da mobil rabitə biznesi üzrə baş əməliyyat direktoru, "OTE Group Greece" və "Romtelecom Romania"da direktorlar şurasının üzvü olub. O həmçinin, Abu Dabidə "Etisalat Groupd"da baş kommersiya direktoru, Nigeriyanın "EMTS" şirkətinin və Pakistanın "PTCL" və "Ufone" şirkətlərinin direktorlar şurasının üzvü, Pakistanın "Ufone" şirkətində baş icraçı direktor, Pakistanın "Ubank" təşkilatında (PTCL qrupunun hissəsi) direktorlar şurasının sədri kimi vəzifələrdə çalışıb.

"Bakcell Azərbaycanın telekommunikasiya sektorunda güclü mövqeyə malikdir və son illərdə xüsusilə böyük nailiyyətlər əldə edib. Bu sırada mən qlobal telekommunikasiya sektorunda böyük əhəmiyyət daşıyan "ən sürətli mobil şəbəkə" və "best in test" ("sınaq nəticələrinə görə ən yaxşı") mükafatlarını, sürətlə genişləndirilən 4G şəbəkəsini və müştəri xidmətləri sahəsində innovasiyaların tətbiqi kimi məqamları xüsusilə vurğulamaq istərdim. "Bakcell"in davamlı inkişafı üçün öz peşəkar təcrübəmdən və bacarıqlarımdan tam olaraq istifadə edəcəyəm. İnanıram ki, şirkətin peşəkar komandası ilə birlikdə "Bakcell"in bundan sonra da uğurlu inkişafını davam etdirəcəyik", deyə cənab Rathgeber bildirib.

2016-cı ilin may ayından 2019-cu ilin aprel ayınadək "Bakcell"in baş icraçı direktoru vəzifəsində çalışmış cənab Nikolai Beckers şirkətin uğurlu fəaliyyətinə töhfə verib. Bu illər ərzində Bakcell şirkətinin Azərbaycanın telekommunikasiya bazarındakı mövqeyi daha da güclənib.

Bakcell Azərbaycanda mobil rabitə xidməti göstərən ilk şirkətdir. Şirkətin 4G şəbəkəsi artıq bütün Bakı və Abşeron ərazisi daxil olmaqla ölkənin 40-dan çox rayon və şəhər mərkəzində mobil operatorun abunəçilərinə ən üstün müştəri təcrübəsi təqdim edir. 7000-dən artıq baza stansiyası vasitəsilə Bakcell şəbəkəsi əhalinin 99%-ni, ölkə ərazisinin isə 93%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir.

## ELAN

Sabirabad rayonu Çöl Dəllək kənd sakini Mütəllimov Gülağa Balalı oğluna torpaq mülkiyyət hüququna dair 1998-ci il 26 mart tarixdə Sabirabad rayon Aqrar İslahat Komissiyası tərəfindən verilən 0019 nömrəli dövlət aktı itdiyi üçün etibarsız sayılır.

## Bakı 14 ildən sonra yenidən bədii gimnastika üzrə DÇ-yə ev sahibliyi edəcək




Azərbaycan Gimnastika Federasiyası ilin ən önəmli yarışlarından birinə hazırlaşır. Bakı 14 ildən sonra - sentyabrın 16-22-də bədii gimnastika üzrə dünya çempionatına ev sahibliyi edəcək.

SİA federasiyaya istinadla xəbər verir ki, zərif gimnastlar Milli Gimnastika Arenasında 1 həftə boyunca öz güclərini sınayacaqlar. Həm fərdi gimnastlar, həm qrup hərəkətləri komandaları ayrı-ayrı alətlər və çoxnövçülük üzrə mübarizə aparacaq, həmçinin komanda hesabında da ən yaxşıların adları açıqlanacaq.

Qeyd edək ki, dünya çempionatı "Tokio 2020" Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyacaq. Çempionat yalnız medalçıları deyil, həm də Olimpiadaya namizədlərin adlarını da müəyyənləşdirəcək. Belə ki, fərdi proqramda çoxnövçülük üzrə ilk 16 yerdə qərarlaşan gimnastlar (bir ölkədən maksimum 2 gimnast olmaqla) lisenziya əldə etmiş olacaq. Qrup hərəkətləri komandalarına gəldikdə isə ötən ilin dünya çempionatının nəticələrinə əsasən, Bolqarıstan, Rusiya və İtaliya artıq lisenziyanı təmin ediblər. Bu ilin çempionatında isə çoxnövçülük xalları üzrə daha 5 ən yaxşı komanda Tokioya vəsiqə qazanacaq.

## "Red Bull" Azərbaycan Qran-Prisi ərəfəsində daha güclü motor alacaq



"Red Bull" komandası Azərbaycan Qran-Prisi ərəfəsində bolidlər üçün daha güclü motor alacaq. AZƏRTAC xəbər verir ki, komandanın avtomobil idmanı üzrə məsləhətçisi Helmut Markonun sözlərinə görə, daha güclü motoru əvvəlcə Monako mövsümünün altıncı yürüşü vaxtı quraşdırmaq nəzərdə tutulurdu. O, "De Telegraf"a deyib: "Honda"dan yaxşı xəbər gəldi və Bakıda biz 20 at gücü daha çox olan motor əldə edəcəyik".

Komandanın rəhbəri Kristian Horner hesab edir ki, motorun təzələnməsi "Red Bull"a kömək edəcək. O deyib: "Honda" şirkəti motorun gücünü artırmaqda nailiyyətlər qazanır. İstehsal mərhələsində olan bir sıra motorlar yaxın gələcəkdə bizim işimizə yarayacaq". Əvvəllər "Red Bull" pilotu Maks Ferstappen şikayət edirdi ki, onun bolidi sürətinə görə "Mersedes" və "Ferrari" maşınlarından geri qalır. Yürüşçü cari mövsümdə üçüncü yerdən yuxarı qalxa bilməyib.

## "Mançester Yunayted" Koutinyonu transfer etməkdən imtina edib



"Mançester Yunayted" "Barselona"nın futbolçusu Filipp Koutinyonu transfer etməməyə qərar verib. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, klub rəhbərliyi Çempionlar Liqasının 1/4 finalında Kataloniya təmsilçisi ilə ilk oyundan sonra bu fikrə düşüb. Belə ki, sözügedən matçda braziliyalı yarımmüdafiəçi meydana çıxan zaman ingilis azarkeşlər sərt reaksiya veriblər. Onlar Koutinyo topa toxunan zaman oyunçunu fitə basıblar. Rəhbərlik 25 yaşlı futbolçunun "Liverpul"da oynamasını əsas gətirərək, azarkeşlərin də bu keçidə qarşı çıxacağını hesab edərək Koutinyonu almaqdan imtina edib. Qeyd edək ki, Koutinyo bu mövsüm 30 matçda 5 qol vurub, 2 qol ötürməsi verib. O, 2013-2018-ci illərdə "Liverpul"da oynayıb.

## İlkay Gündoğan "Mançester Siti"dən ayrılacaq

İngiltərənin "Mançester Siti" futbol klubunun yarımmüdafiəçisi İlkay Gündoğan yay transfer pəncərəsində komandadan ayrıla bilər. Xarici KİV-lərin yazdığına görə, 28 yaşlı türk əsilli almaniyalı yarımmüdafiəçi bir müddət əvvəl klubla müqaviləni yeniləməyəcəyini bildirib. Bu səbəbdən klub rəhbərliyi futbolçunu satmağı planlaşdırır. Komanda Gündoğanı ən azı 30 milyon avroya satmağı düşünür.

Qeyd edək ki, yarımmüdafiəçi 2016-cı ildə "Borussiya Dortmund" klubundan Mançester təmsilçisinə transfer olunub. O, cari mövsümdə "Mançester Siti"nin heyətində keçirdiyi 41 oyunda 5 dəfə fərqlənib.


**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600